100 ilin qəzeti



Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

Sayı: 35 (24.521)

12 sentyabr 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi



# "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" – qədim şəhərin yeni siması

**Prezident İlham ƏLİYEV:**

*"Dövlət tərəfindən Naxçıvan Muxtar Respublikasının inkişafına nə lazımdırsa, o da bu günə qədər edilib və ediləcək. Naxçıvanda son 20 il ərzində bütün tikintilər dövlət büdcəsindən maliyyələşdirilib. Hər il Azərbaycan dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə yüz milyonlarla manat vəsait ayrılır. Yəni bu olmasaydı, təbii ki, biz bugünkü inkişaf edən və abad Naxçıvanı da görə bilməzdik."*

Tarixin bütün dövrlərində şəhərlər ölkələrin inkişaf səviyyəsini, idarəetmə mədəniyyətini və gələcəyə baxışını göstərən əsas amil kimi qiymətləndirilib. Azərbaycan şəhərlərinin gözəlliyi, tarixi abidələrinin şöhrəti dillərdə dolaşıb. Qədim Bakının, Qəbələnin, Gəncə və Naxçıvan şəhərlərinin gözəlliyi tarixboyu buraya səfər edən səyyahların diqqətini çəkib.

Prezident İlham Əliyevin liderliyi ilə tarixinin ən qüdrətli mərhələsini yaşayan ölkəmizdə paytaxt Bakının və digər iri şəhərlərimizin müasir məkana çevrilməsi, regionlarda infrastrukturun müasirləşdirilməsi, işğaldan azad olunmuş ərazilərimizdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin tətbiqi ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətlərin dünyaya təqdim olunması baxımından böyük imkanlar yaradır. Həyata keçirilən layihələr göstərir ki, ölkədə şəhərsalma siyasəti sistemli və uzunmüddətli strateji baxış əsasında qurulur. Bu siyasətin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı, təşəbbüsləri və daim diqqətdə saxladığı məsələlər mühüm rol oynayır. Onun fəaliyyətində şəhərsalma milli inkişaf strategiyasının vacib elementi kimi çıxış edir. Şəhərlərin yenidən qurulmasında yaxından iştirak edən birinci xanımın bu sahəyə yanaşmasında diqqətçəkən əsas məqam qədim irslə müasir inkişaf arasında balans yaratmaqdır. Naxçıvan şəhərinin keçmişi və bu günü də dövlət başçısının və birinci xanımın diqqətindədir.

Bu il 11 avqustda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın qədim diyar Naxçıvana səfəri zamanı "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" Prezidentə təqdim olundu. Dövlətimizin başçısı Baş Plan və şəhərdə icra olunan iri infrastruktur layihələri, tikinti və bərpa işləri ilə yaxından tanış oldu. Ötən dövr ərzində Naxçıvanda həyata keçirilən genişmiqyaslı abadlıq və quruculuq işləri, yeni yolların, sosial obyektlərin, yaşayış komplekslərinin, sənaye müəssisələrinin, müasir xidmət infrastrukturunun yaradılması qədim diyarımızın simasını tamamilə dəyişmişdir. Bu dəyişikliklər yalnız bugünkü nəslin rifahına deyil, gələcək nəsillərin firavan həyatına hesablanmış uzaqgörən dövlət siyasətinin parlaq nəticəsidir. Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində bu gün Azərbaycan dünyada güclü dövlət kimi tanınır, Naxçıvan isə sürətlə inkişaf edən, müasirləşən və tarixi irsini qoruyan örnək bölgəyə çevrilir. Bu Baş Planın təsdiq edilməsi isə Naxçıvanın gələcəyinə qayğı deməkdir.

Vurğulanmalıdır ki, Baş Plan müstəqillik dövründə Naxçıvan şəhəri üçün hazırlanmış ilk belə strateji sənəddir. Konsepsiyanın əsas istiqamətləri şəhər mərkəzinin yenilənməsi, rekreasiya zonalarının genişləndirilməsi, dayanıqlı mobillik, yaşayış və sosial infrastrukturun gücləndirilməsi və turizm potensialının daha səmərəli istifadəsidir. Baş Planda şəhərin 74 hektarlıq mərkəzi hissəsinin yenidən formalaşdırılması, daha yığcam, canlı və əlçatan şəhər məkanının yaradılması nəzərdə tutulur. Bu, sadəcə, abadlıq layihəsi deyil, qədim şəhərin gələcək şəhər iqtisadiyyatının, turizminin, nəqliyyat sisteminin və yaşayış mühitinin uzunmüddətli xəritəsidir.

Naxçıvanın inkişaf strategiyasında insan amili xüsusi yer tutur. Prezidentin Naxçıvan şəhərində 518 mənzildən ibarət sosial evlər kompleksinin təməlini qoyması bunu bir daha nümayiş etdirdi. Bu layihə Naxçıvan şəhərinin iqtisadi gücü ilə yanaşı, insanların yaşayış standartlarını da yüksəldəcəkdir. Naxçıvanın Baş Planının hazırlanması, həyata keçiriləcək layihələr tarixi-mədəni obyektlərin konservasiyası, şəhərin müasir inkişaf konsepsiyasının milli memarlıq ənənələri ilə uzlaşdırılması gələcəyin Naxçıvanının daha gözəl və daha yaşanılan şəhərə çevriləcəyindən xəbər verir. Bu yanaşma ölkəmizdə memarlıq və şəhərsalma siyasətinin yeni mərhələyə yüksəldiyini və gələcəyə hesablandığını göstərir.

Yaddaş daşıyıcısı olan şəhərlərdə yenidənqurma işləri yalnız müasir tikinti üzərində qurulsa, şəhərin tarixi yox olar, milli kimliyi itər. Dövlətimiz bu sahədə mühüm işlər görür, şəhərsalma siyasətində milli memarlıq elementlərinin və tarixi mühitin qorunmasına xüsusi önəm verilir. Birinci vitse-prezidentin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən layihələr, qədim irsin qorunması və müasir inkişafın uzlaşdırılması istiqamətində formalaşan yanaşma Azərbaycanın şəhərlərinə həm tarixi dəyər, həm də müasir həyat keyfiyyəti qazandırır. Davamlılıq və estetik harmoniyanın əsas prinsipə çevrildiyini göstərir. Çünki tarixin bütün dövrlərində şəhərlər yalnız müasir binalarla deyil, əsrlərin yaddaşını yaşadan abidələri ilə də yaşayır.

Əminik ki, Vətənə sonsuz sevgi, yurda bağlılıqla həyata keçirilən siyasət nəticəsində Naxçıvan yaxın illərdə təkcə Azərbaycanın deyil, bütün Qafqazın ən müasir, ən yaşıl və memarlıq baxımından ən nümunəvi şəhərlərindən birinə çevriləcək. Yüz illərin sirrini tarixin tozlu səhifələrində yaşadan qədim yurd öz gözəlliyi ilə hər kəsi valeh edəcək.

Ramiyə ƏKBƏROVA

# "Ümid" körpüsündən Zəngəzur dəhlizinə



1992-ci il mayın 28-də günün erkən saatlarından Araz çayının sağ və sol sahilində iki qardaş ölkənin – Azərbaycan və Türkiyənin vətəndaşları böyük coşqu ilə toplaşmışdılar. 60 millət vəkili və 40-dan çox nüfuzlu KİV nümayəndəsi də bir neçə saat sonra baş verəcək tarixi hadisəni gözləyirdi. Türkiyənin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu əraziyə gələcək, iki qardaş xalqı bir-birinə daha da yaxınlaşdıracaq körpünün açılışını edəcəkdilər. Arazın üzərində salınan Sədərək-Dilucu körpüsü xalqın yaddaşında "Ümid" körpüsü, "Həsrət" körpüsü kimi qaldı. Çünki həmin dövrdə Naxçıvan ağır blokada şəraitində yaşayırdı. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində muxtar respublikanın Azərbaycanın əsas hissəsi ilə əlaqələri faktiki olaraq kəsilmiş, 1992-ci ildə Bakı-Naxçıvan dəmir yolu əlaqəsi də dayanmışdı. Elə mayın 18-də Sədərəyə hücumun baş verməsi Naxçıvanın nə qədər mürəkkəb və təhlükəli şəraitdə olduğunu göstərirdi. Belə bir vəziyyətdə Türkiyə ilə birbaşa quru əlaqəsinin yaradılması Naxçıvan üçün yalnız iqtisadi və sosial məsələ deyildi. Bu həm də təhlükəsizlik, siyasi iradə və milli həmrəylik məsələsi idi. Ümummilli Lider Heydər Əliyev Naxçıvanın həmin ağır günlərində Türkiyəyə üz tutaraq qardaş ölkənin dəstəyini təmin etməyə çalışırdı. 1992-ci ilin martında Türkiyəyə səfər zamanı əməkdaşlıq protokolunun imzalanması və Sədərək-Dilucu körpüsünün inşasına başlanılması məhz həmin siyasətin nəticəsi idi.

Mayın 28-də isə qısa müddətdə inşa edilmiş körpünün açılışı baş tutdu. Arazın hər iki sahilində toplaşan minlərlə insan üçün bu sadəcə, iki sahili birləşdirən qurğu deyildi. O gün insanlar qarşı sahildə özlərinə yaxın olan bir ölkəni, bir xalqı və bir çıxış yolunu görürdülər. Uzun müddət ayrılığın, çətinliyin və qeyri-müəyyənliyin içində yaşayan Naxçıvan üçün körpünün üzərindən keçən hər bir insan, hər bir avtomobil bir az da ümid demək idi. Ulu Öndər Heydər Əliyev sonralar həmin hadisəni xatırlayaraq deyirdi: ***"Biz bərabər, bir yerdə körpü tikdik – "ümid" körpüsü, "həsrət" körpüsü tikdik. O körpü Türkiyə ilə Azərbaycanı birləşdirdi".***

Bu ifadənin arxasında bütöv bir tarixi reallıq dayanır. Çünki həmin körpü Naxçıvana yalnız yol açmadı. O, blokada şəraitində yaşayan insanların ümidini artırdı, Türkiyə ilə iqtisadi, sosial, mədəni və humanitar əlaqələrin genişlənməsinə imkan yaratdı. Naxçıvanın dünyaya açılan mühüm qapılarından birinə çevrildi. Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında yeni mərhələnin əsasını qoyan bu körpü həm də gələcək nəqliyyat layihələrinin siyasi və mənəvi təməl daşlarından biri oldu.

### *Bir körpüdən başlayan böyük yol*

Bəzən bir yolun əhəmiyyətini onun uzunluğu ilə deyil, insanların həyatında açdığı imkanlarla ölçmək lazımdır. Sədərək-Dilucu körpüsünün tarixini də məhz bu prizmadan oxumaq mümkündür. 1990-cı illərdə əsas məsələ Naxçıvanın Türkiyə ilə bağlantısını təmin etmək idi. O vaxt bu, həyati zərurət sayılırdı. Bu gün isə həmin coğrafiyada tamam başqa miqyasda layihələrdən danışılır. O vaxt Arazın üzərindəki bir körpü Naxçıvanı Türkiyəyə bağladı. Bu gün isə Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək yeni nəqliyyat xətti regional və beynəlxalq əhəmiyyət daşıyan layihəyə çevrilir. Bu mənada, "Ümid" körpüsü ilə Zəngəzur dəhlizi arasında yalnız coğrafi deyil, həm də strateji bağlılıq var. Birincisi, çətin dövrün çıxış yolu idi, ikincisi isə yeni mərhələnin iqtisadi və geosiyasi imkanlarını formalaşdıracaq bağlantıdır.

1992-ci ildə məqsəd Naxçıvanın təcrid vəziyyətini yumşaltmaq və Türkiyə ilə əlaqəni təmin etmək idisə, bu gün hədəf daha böyükdür: Naxçıvanı Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və Avropa arasında formalaşan geniş nəqliyyat sisteminin mühüm halqasına çevirmək. Məhz buna görə Zəngəzur dəhlizinə yalnız Azərbaycanla Naxçıvan arasında yol kimi baxmaq düzgün olmaz. Bu layihə daha geniş coğrafiyanın nəqliyyat xəritəsini dəyişə biləcək imkanlara malikdir. Azərbaycan artıq bunun üçün öz ərazisində böyük hazırlıq işləri görüb. İşğaldan azad edilmiş ərazilərdə Horadiz-Ağbənd avtomobil və dəmir yollarının inşası, yeni magistralların, tunellərin və körpülərin yaradılması ölkənin qərb istiqamətində nəqliyyat imkanlarını genişləndirir. Bu xəttin regional nəqliyyat sisteminə inteqrasiyası isə Orta Dəhlizin yeni qolunun formalaşmasına imkan verə bilər.

### *Zəngəzur dəhlizi: Naxçıvana gedən yoldan daha böyük layihə*

Zəngəzur dəhlizi ideyasının əsas mahiyyəti Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin yaradılmasıdır. Lakin layihənin əhəmiyyəti bununla bitmir. Marşrut reallaşdıqda Azərbaycan üzərindən keçən Şərq-Qərb nəqliyyat xəttinin alternativ istiqamətlərindən birinə çevriləcək. Çin və Mərkəzi Asiyadan gələn yüklərin Xəzər dənizi, Azərbaycan, Naxçıvan və Türkiyə üzərindən Avropaya çıxması üçün yeni imkan yaranacaq.

Beləliklə, Naxçıvan bir vaxtlar Azərbaycanın əsas hissəsindən təcrid olunmuş coğrafi ərazi kimi böyük çətinliklərlə üzləşirdisə, gələcəkdə Şərqlə Qərb arasında yük və sərnişin axınlarının keçdiyi mühüm tranzit məkanlardan birinə çevriləcək. Bu baxımdan, Zəngəzur dəhlizi Naxçıvan üçün yalnız "Bakıdan Naxçıvana yol" deyil. Bu, muxtar respublikanın iqtisadi coğrafiyasının dəyişməsi deməkdir. Dəmir yolu və avtomobil yolunun bərpası ilə yanaşı, logistika mərkəzlərinin, anbar komplekslərinin, gömrük və xidmət infrastrukturlarının, sənaye müəssisələrinin və yeni investisiya layihələrinin inkişafı üçün imkanlar yaranacaq. Nəqliyyatın artması isə xidmət sektorundan turizmə, ticarətdən sənayeyə qədər müxtəlif sahələrə təsir göstərəcək.

Prezident İlham Əliyev avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri zamanı bu məsələyə toxunaraq bildirdi ki, Zəngəzur dəhlizi təkcə nəqliyyat infrastrukturu deyil, buradan enerji xətləri də keçə bilər. Başqa sözlə, söhbət yalnız yolun çəkilməsindən getmir. Bu xəttin üzərində yeni iqtisadi imkanların formalaşmasından gedir.

Prezident İlham Əliyev Naxçıvana son səfəri zamanı bu məsələyə məhz strateji baxımdan yanaşdı. Azərbaycan Televiziyasına müsahibəsində Zəngəzur dəhlizinin yaradılmasının Azərbaycanın təşəbbüsü olduğunu vurğulayan dövlət başçısı Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirməyin çoxdankı arzu olduğunu bildirdi və qeyd etdi: ***"Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq".***

Bu fikir prosesin artıq hansı mərhələyə gəlib çatdığını göstərir, söhbət yalnız gələcəkdə həyata keçirilməsi planlaşdırılan ideyadan getmir. Azərbaycan öz ərazisində infrastrukturun qurulması istiqamətində mühüm işlər həyata keçirir, Türkiyə tərəfində də Dilucu-Qars dəmir yolu layihəsinin icrasına başlanılıb.

Azərbaycan Prezidentinin 2026-cı ilin aprelində Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçıları ilə görüşdə verdiyi məlumata görə, Zəngəzur dəhlizinin Azərbaycan ərazisində avtomobil yolunun, təxminən, 90 faizi, dəmir yolunun isə, təxminən, 70 faizi hazır vəziyyətdədir. Dövlət başçısı Türkiyədə Qars-Naxçıvan dəmir yolunun tikintisinə başlanıldığını da qeyd edib. Bu göstəricilər layihənin artıq yalnız siyasi müzakirə mövzusu olmadığını, real infrastruktur mərhələsinə keçdiyini göstərir.

### *Yeni mərhələ: Naxçıvan beynəlxalq nəqliyyat habına çevrilir*

Prezident İlham Əliyev daha əvvəl də bildirmişdi ki, Zəngəzur dəhlizi yalnız Azərbaycan-Naxçıvan əlaqəsi deyil, həm də beynəlxalq nəqliyyat dəhlizi olacaq. Azərbaycanın əsas hissəsindən Naxçıvana qədər bağlantının yaradılması birinci mərhələdə milli ehtiyacı qarşılayırsa, həmin xəttin Türkiyənin Qars istiqamətindəki dəmir yolu ilə birləşməsi regional bağlantı yaradır. Orta Dəhlizlə inteqrasiya isə bu marşrutu daha geniş beynəlxalq nəqliyyat sisteminin bir hissəsinə çevirəcək. Beləliklə, xəritədə ardıcıllıq belə görünür: Çin-Mərkəzi Asiya-Xəzər dənizi-Azərbaycan-Zəngəzur-Naxçıvan-Türkiyə-Avropa. Bu xəttin əhəmiyyəti yalnız məsafənin qısalmasında deyil. Müasir dünyada alternativ nəqliyyat marşrutlarının mövcudluğu dövlətlər üçün iqtisadi təhlükəsizlik, təchizat zəncirlərinin dayanıqlılığı və tranzit rəqabəti baxımından mühüm üstünlükdür. Prezident İlham Əliyev də bu məqamı vurğulayaraq Azərbaycanın Qərbə doğru ikinci dəmir yolu marşrutuna sahib olmasının rəqabətqabiliyyətlilik və tranzit imkanları baxımından əhəmiyyətini qeyd edib.

### *Naxçıvan artıq təkcə keçid məkanı olmayacaq*

Zəngəzur dəhlizinin reallaşması Naxçıvanı yalnız tranzit yolun üzərində yerləşən əraziyə çevirmir. Burada əsas məqsəd tranzit imkanlarından muxtar respublikanın öz iqtisadi inkişafı üçün istifadə olunmasıdır. Naxçıvanda artıq bunun ilkin konturları görünür. 11 avqust 2026-cı il tarixdə Prezident İlham Əliyevin iştirakı ilə ölkəmizdə sayca 9-cu olan Naxçıvan Sənaye Parkının təməli qoyuldu, 300 meqavat gücündə istilik elektrik stansiyasının yaradılması planlaşdırılır, yeni Günəş elektrik stansiyaları ilə bağlı məsələlər gündəmdə saxlanıldı. Prezident müsahibəsində Naxçıvanın enerji potensialının gələcəkdə ixrac imkanlarına çevriləcəyini də vurğuladı. Bu, çox mühüm dəyişiklikdir. Bir vaxtlar Naxçıvanın əsas problemlərindən biri enerji, ərzaq və digər zəruri məhsulların təminatında yaranan çətinliklər idisə, indi qarşıya qoyulan məqsəd muxtar respublikanı enerji istehsal və ixrac edən, sənaye və logistika imkanlarını genişləndirən, investisiya cəlbediciliyi artan iqtisadi məkana çevirməkdir. Bu dəyişiklik yalnız xəritədə yeni bir xəttin çəkilməsi ilə ölçülməyəcək. Bunun arxasında yeni iş yerləri, müəssisələr, artan ticarət dövriyyəsi, daha sürətli yükdaşımalar və ən əsası, Naxçıvan insanının qarşısında genişlənən imkanlar dayanır. Yəni bu yolun əsl nəticəsi asfalt və relslə deyil, insanların həyatında yaradacağı dəyişikliklərlə ölçüləcək. Bu mənada, "Ümid" körpüsü ilə başlayan yolun məntiqi davamı artıq daha geniş miqyasda görünür.

### *"Ümid"dən strateji zərurətə*

1992-ci ildə Arazın üzərində qurulan "Ümid" körpüsü Naxçıvanın ən çətin günlərində dünyaya açılan mühüm qapılarından biri oldu. Bu gün qarşıda duran vəzifə artıq yalnız blokadanın yaratdığı məhdudiyyətləri aradan qaldırmaq deyil. Muxtar respublikanın Azərbaycanın əsas hissəsi ilə birbaşa əlaqəsinin bərpası, Türkiyə ilə nəqliyyat bağlantılarının genişləndirilməsi və Naxçıvanın beynəlxalq logistika sisteminə daha fəal şəkildə qoşulması yeni inkişaf mərhələsinin əsas istiqamətlərindəndir. Bu baxımdan, Zəngəzur dəhlizi "Ümid" körpüsünün, sadəcə, coğrafi davamı deyil. O, 1992-ci ildə yaranmış bir zərurətin bu gün daha böyük regional və beynəlxalq layihəyə çevrilməsinin ifadəsidir. Prezident İlham Əliyevin Naxçıvana son səfəri zamanı atılan layihələr və səsləndirdiyi fikirlər də göstərir ki, proses yalnız nəqliyyat məsələsi kimi nəzərdən keçirilmir. Enerji, sənaye, logistika və infrastruktur sahələrində həyata keçirilən layihələr bir-birini tamamlayır və Naxçıvanın gələcək iqtisadi modelinin formalaşdırılmasına xidmət edir.

Əgər "Ümid" körpüsü Naxçıvan üçün çətin dövrdən çıxışın başlanğıcı idisə, Zəngəzur dəhlizi onun qarşısında yeni iqtisadi və nəqliyyat imkanları açan mərhələdir. Bir vaxtlar Naxçıvanın dünyaya açılan qapısı Arazın üzərindəki bir körpü idi. O körpüdən keçən insanlar üçün yol Türkiyəyə, əslində isə ümidə gedirdi. Bu gün isə qarşıda daha böyük bir yol görünür. O yol Naxçıvanı Azərbaycanın əsas hissəsi, Türkiyə və daha geniş coğrafiya ilə birləşdirəcək.

Naxçıvan üçün yeni mərhələ də məhz burada başlayır: bir vaxtlar dünyaya açılmaq üçün körpüyə ehtiyac duyan Naxçıvanın, indi regionu birləşdirən mühüm nəqliyyat və iqtisadi qovşaqlardan birinə çevrilməsi.

**Nicat QULİYEV**
***Naxçıvan Televiziyasının baş redaktoru***

# Türk xalqları birliyinin memarı İLHAM ƏLİYEV




## Türk xalqlarının inteqrasiyasında Prezident İlham Əliyev xüsusi rol oynayır

Tarixin tozlu səhifələrini vərəqlədikcə, türkün şanlı tarixinə şahidlik etdikcə dünyaya səs salan türk fatehlərinin döyüş meydanında şahə qalxan atlarının kişnərtisi, qılınclarının səsi hələ də eşidilir. Tarixin axışını, zamanın sükutunu dəyişən, Şərqdən Qərbə öz igidliyi ilə səs salan, qəhrəmanlığı ilə dünyanı lərzəyə gətirən sərkərdə-xaqanlarımızın adı yüz illərdir, dillərdə dolaşır. Şah İsmayılın, Atabəy Eldəgizin, Qızıl Arslanın, Pənahəli xanın tarixə yazılan igidlikləri, Vətən sevgisi və torpaq məhəbbəti qəlbimizə möhür vurub, əsrlərdir, damarımızda axan qanda dolaşır. Dünya öz oxu ətrafında fırlandıqca tarix təkrarlanır. Tanrı bu xalqa yeni fatehlər bəxş edir. Müasir tariximizin Müzəffər Sərkərdəsi, Qarabağ fatehi İlham Əliyev də gələcək nəsillərin və bu günün qəhrəmanıdır. Vətən savaşının Müzəffər Sərkərdəsinin siyasi təfəkkürü, sərkərdəlik məharəti, sülhə çağrışı bu xalqı bütün dünyada qürurlandırır. O həm də Türk dünyasının inteqrasiyasında və Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın gücləndirilməsində mühüm tarixi rol oynayan liderlərdən biridir. Dövlətimizin başçısı ölkəmizin tərəqqisini, inkişafını, gələcəyini həm də türk dövlətlərinin birliyində görür. Dünyadakı digər beynəlxalq təşkilatlarla yanaşı, Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlığa da çox böyük önəm verir.

Dünyada sürətlə dəyişən tarixi və siyasi proseslər türk xalqlarının, türk dövlətlərinin bir-birinə daha da yaxınlaşmasını, türk dövlətlərinin bir təşkilat ətrafında birləşməsini zəruri etdi. 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə görüşü keçirildi. Dövlət başçısının 2003-cü ildən bu yana Türk dünyası ilə bağlı atdığı davamlı addımlar isə göstərir ki, türk xalqlarının inteqrasiyasında Azərbaycan rəhbəri xüsusi rol oynayır. Məhz bütün bunların nəticəsidir ki, dövlət başçısı 22 dekabr 2016-cı ildə Türkdilli Ölkələrin Parlament Assambleyası (TürkPA) tərəfindən Türkdilli ölkələrin həmrəyliyinin gücləndirilməsindəki xidmətlərinə görə "TürkPA-nın inkişafındakı xüsusi xidmətlərə görə" medalı ilə də təltif edilib. Həmçinin Azərbaycan Prezidenti İlham Əliyev türk dövlətləri birliyinə və ərazi bütövlüyünün bərpasına verdiyi mühüm töhfələrə görə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilmişdir. Bu yüksək mükafat ona 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə təqdim olunub. 2026-cı il iyul ayının 31-də Prezidentin Qırğız Respublikasına rəsmi səfəri çərçivəsində dövlət başçısına Qırğızıstanın ali mükafatı – 1-ci dərəcəli "Manas" ordeni, bu il 23 avqustda Özbəkistana rəsmi səfəri zamanı isə Özbəkistan Respublikasının "Ali Dostluq Dərəcəsi" ordeni təqdim edilib.

### *Azərbaycanın Türk dünyasındakı rolu daha da güclənir*

Vətən müharibəsinin qələbə ilə bitməsi, sonrakı hərbi əməliyyatlarda qazanılan uğurlar Azərbaycanın Türk dünyasındakı rolunu daha da gücləndirdi. Vətən müharibəsində qazanılan zəfərdən sonra türk dövlətlərinin liderləri müxtəlif vaxtlarda Qarabağa səfərlər etməklə bərabər, bölgənin yenidən qurulmasına öz qardaşlıq töhfələrini də verirlər. Bunun ən böyük səbəbi isə Prezident İlham Əliyevin yürütdüyü siyasətdir. Türkdilli dövlət başçılarının Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrinə səfərləri qardaşlıq və həmrəylik nümayiş etdirdi. Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan liderlərinin Qarabağa səfərləri çərçivəsində müxtəlif layihələr reallaşıb. 2024-cü il iyulun 6-da Şuşa şəhərində Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçirilib və Qarabağ Bəyannaməsi imzalanıb. Dövlətimizin başçısı Zirvə görüşündə deyib: ***"Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər. Fürsətdən istifadə edərək qardaşlığımızın rəmzi olan məktəb və yaradıcılıq mərkəzinə və eləcə də tikiləcək məktəblərə görə qardaş ölkələrin dövlət və hökumət başçılarına bir daha təşəkkürümü bildirirəm".***

### *Zəngəzur dəhlizi Türk dünyasının birliyinə xidmət edəcək*

44 günlük haqq mübarizəmizdə qazandığımız zəfər həm də bölgədə yeni imkanlar yaratdı. Bunlardan biri türkdilli ölkələr arasında yaranan nəqliyyat əlaqələridir. İlham Əliyevin Türk dünyasının birliyi və nüfuzu ilə bağlı fəaliyyətində yeni səhifə isə Azərbaycanın ötən il avqustun 8-də Vaşinqtonda nail olduğu razılaşma ilə açıldı. Cənubi Qafqazda yeni beynəlxalq hüquqi reallıqlara nail olundu və Zəngəzur dəhlizi layihəsinin tezliklə gerçəkləşməsi üçün imkanlar yarandı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nəinki müharibədə qalib gəldi, həm də sülh prosesində siyasi və mənəvi üstünlüyünü qoruyub saxladı. Vaşinqtonda imzalanan bəyannamədə Azərbaycanın milli maraqları tam şəkildə nəzərə alındı, ərazi bütövlüyü və suveren hüquqları birmənalı şəkildə təsdiq olundu. Bəyannaməyə Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında maneəsiz əlaqənin yaradılması ilə bağlı bəndin salınması Azərbaycanın tranzit suverenliyinin tanınması, Azərbaycan Prezidentinin beynəlxalq aləmdə qazandığı etimadın canlı sübutu deməkdir. Dövlət başçısı bu nəqliyyat dəhlizinin əhəmiyyətini belə qeyd etmişdir: ***"Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək Türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, Türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi Türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün Türk dünyasını birləşdirəcək, eyni zamanda digər ölkələr üçün əlavə imkanlar yaradacaq".***

Bu gün Prezident İlham Əliyev Ulu Öndərin yolunu qətiyyətlə davam etdirərək qlobal reallıqları ustalıqla nəzərə alaraq ölkəmizi yeni-yeni zirvələrə daşıyır. O öz siyasi gücü ilə Zəngəzurdan sülh yolu ilə keçib bütün Türk dünyasını bir-birinə birləşdirən körpünün yaradılmasına nail olub, adını isə tarixə türk xalqları birliyinin memarı kimi həkk edəcək.

✍ **Ramiyə ƏKBƏROVA**



# Neft çıraqlarından işıqlı şəhərlərə



**Naxçıvan şəhərindəki Ulu Öndərin adını daşıyan muzeydə, bir vaxtlar Ulu Öndərin masası üstündə yanan, indi isə bizə şanlı mübarizəmizi xatırladan neft çırağına tamaşa edirəm. Həmin illəri – qaranlıq və soyuq gecələri, elektrik enerjisinin olmadığı illəri xatırlayıram. Düşmənin qəfil hücumu ilə başlamışdı hər şey. Soyuq yanvar gecəsində bir anda qaranlığa qərq oldu bütün şəhər. Artıq iki il idi ki, 1988-ci ildən başlayaraq qonşumuz ermənilər Naxçıvana gələn qatarları saxlayır, sərnişinlərə hücumlar olur, mavi yanacaq və elektrik enerjisi dayandırılırdı. Biz 70 il öncə edilən səhvin qurbanına çevrilmişdik. Zəngəzurun ermənilərə peşkəş edilməsi Naxçıvanı ana Vətənindən ayırmışdı. Öz torpağımız sərhədimizə çevrilmişdi. Sovet quruluşunun qaydaları ilə “qardaş” olduğumuz Ermənistanın ərazisindən keçən qaz və elektrik xətləri Naxçıvanı işıq və mavi yanacaqla təmin edirdi.**

Həmin günlərdə sərhədlərimizə hücum edən quldurlar öncə elektrik xəttini sıradan çıxarıb Naxçıvanı qaranlığa qərq etdilər. Düşündülər ki, bu yolla qədim diyarı işğal edə biləcəklər. Amma onlar yanılmışdı. Unutmuşdular Babəkin qüdrətini, Əlincənin alınmazlığını. Gündüzlər Günəşin işığında, gecələr isə Vətən sevgisi ilə yanan qəlbimizin nuru ilə biz bir olub səngərlərdə dayandıq. Elektrik enerjisi olmadığı günlərdə çıraq işığında yun corab toxudu analarımız, səngərdə döyüşən əsgərə göndərdi. Yaş odunla ocaq qalayıb yemək, çörək bişirib, özü ətrinə doyub əsgərə pay tutdu naxçıvanlı qadınlar. Çıraq işığında dərs oxuyub, müstəqil Azərbaycanın Dövlət Himnini əzbərləyib şəhid məzarı başında qürurla “Səndən ötrü can verməyə cümlə hazırıq, Şanlı Vətən Azərbaycan” dedik. Biz bir olub Vətən oğlunu bağrımıza basıb çıraq işığında müstəqil, müasir Azərbaycanın təməlini qoyduq.

Bax burada – Naxçıvanda, həmin neft çırağının işığında dahi rəhbər gələcəyimizə işıq salan sərəncamlar imzaladı. Hər sahədə olduğu kimi, enerji istehsalı sahəsində də mühüm işlər görüldü. Yeni-yeni su elektrik stansiyaları inşa olundu. Heydər Əliyev Günəşi öz əməlləri ilə yurdumuzu nura qərq etdi.

Gün o gün oldu, qonşu dövlətlərdən gələn elektrik enerjisi ilə yandı evimizin işığı. Amma dünyanın belə siyasi gücünə və diplomatiyasına heyran qaldığı Heydər Əliyevin Naxçıvanın gələcəyi üçün olan planlarından biri də böyük elektrik stansiyalarının inşa olunması idi. Dahi rəhbərin Naxçıvana rəhbərlik etdiyi illərdə bu istiqamətdə bir çox mühüm addımlar atıldı. Sonrakı illərdə Naxçıvanda Ulu Öndərin davamçısının rəhbərliyi ilə inşa olunan su, külək, günəş elektrik stansiyalarında istehsal olunan enerji ilə yurdumuz nura boyandı.

“Qonşuya ümid olan şamsız qalar” atalar sözü də tarixin tozlu rəflərində qaldı. Çünki daha biz qonşuya yox, onlar bizə ümidli olub. Naxçıvandakı su, günəş, külək elektrik stansiyalarının istehsal etdiyi elektrik enerjisini qonşu dövlətlərə ixrac edirik. Naxçıvan artıq “yaşıl enerji zonası”na çevrilib. Bu gün Naxçıvanın generasiya gücü, təqribən, 200 meqavatdır. Azərbaycan elektrik enerjisi problemi olmayan nadir ölkələrdəndir. Naxçıvan diyarının ərazisində su və günəş elektrik stansiyaları, modul tipli elektrik stansiyası inşa edilib. Bu gün də dövlət başçısının rəhbərliyi ilə bu sahədə işlər davam edir.

Artıq uzun illərdir ki, naxçıvanlıların “yağış yağan, külək əsən kimi elektrik enerjisi kəsiləcək” kimi bir dərdi də yoxdur. Artıq Sədərəkdə, Ordubadda, Şahbuzda dağların zirvəsində qurulan postlarda yanan çırağın al şəfəqi düşmənin gözünü kor edir.

**Ramiyə ƏKBƏROVA**

# Azərbaycanın enerji zəfəri:
## *Türkiyəyə uzanan yüksəkgərginlikli elektrik xətti*

**Azərbaycan son illərdə enerji sahəsində əldə etdiyi uğurları yeni mərhələyə daşıyır. Əgər uzun illər ölkəmiz dünyanın etibarlı neft və təbii qaz ixracatçısı kimi tanınırdısa, bu gün artıq elektrik enerjisinin, xüsusilə də bərpa olunan mənbələrdən istehsal edilən “yaşıl enerji”nin ixracı istiqamətində mühüm addımlar atılır. Bu strategiyanın əsas istiqamətlərindən biri Azərbaycan ilə Türkiyə arasında yüksəkgərginlikli elektrik ötürmə xətlərinin inkişaf etdirilməsi və enerji əməkdaşlığının daha da genişləndirilməsidir.**

**Azərbaycan və Türkiyə təkcə qardaş ölkələr deyil, həm də uzun illərdir, enerji sahəsində etibarlı strateji tərəfdaşlardır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, TANAP və digər beynəlxalq layihələr bu əməkdaşlığın nə qədər uğurlu olduğunu sübut edir. İndi isə bu əməkdaşlıq elektrik enerjisi sahəsində yeni mərhələyə qədəm qoyur. Yüksəkgərginlikli elektrik ötürmə xətləri gələcəkdə Azərbaycanın istehsal etdiyi elektrik enerjisinin Türkiyəyə və oradan Avropa bazarlarına çatdırılması üçün mühüm rol oynayacaq.**

Dünyada enerji bazarı sürətlə dəyişir. Bir çox ölkələr artıq yalnız neft və qaz deyil, elektrik enerjisinin beynəlxalq ticarətinə də böyük önəm verir. Xüsusilə külək və günəş enerjisi kimi bərpa olunan mənbələrdən istehsal olunan elektrik enerjisi gələcəyin əsas enerji mənbələrindən biri hesab olunur. Azərbaycan da zəngin təbii potensialından istifadə edərək bu istiqamətdə mühüm layihələr həyata keçirir.

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, eləcə də Naxçıvan Muxtar Respublikası “yaşıl enerji zonaları” kimi inkişaf etdirilir. Bu ərazilərdə günəş və külək elektrik stansiyalarının tikintisi davam edir. Xəzər dənizinin külək enerjisi potensialı isə Azərbaycanın gələcək enerji strategiyasında xüsusi yer tutur. İstehsal ediləcək elektrik enerjisinin xarici bazarlara çıxarılması üçün müasir və güclü ötürmə xətlərinin yaradılması vacibdir.

Məhz bu baxımdan Azərbaycan-Türkiyə yüksəkgərginlikli elektrik ötürmə xətti xüsusi strateji əhəmiyyət daşıyır. Bu layihə ölkələr arasında enerji əlaqələrini gücləndirməklə yanaşı, Azərbaycanın Avropa enerji bazarına inteqrasiyasını da sürətləndirəcək. Türkiyə Avropa ilə Asiyanı birləşdirən mühüm enerji qovşağı olduğundan bu marşrut Azərbaycan üçün geniş imkanlar yaradır.

Layihənin iqtisadi faydaları olduqca böyükdür. Elektrik enerjisinin ixracı dövlət büdcəsinə əlavə valyuta gəlirləri qazandıracaq, enerji sektoruna yeni investisiyalar cəlb olunacaq, yeni yarımstansiyalar, ötürücü xətlər və digər enerji infrastrukturu yaradılacaq. Bu isə yeni iş yerlərinin açılması, regionların inkişafı və ölkə iqtisadiyyatının şaxələndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Enerji təhlükəsizliyi baxımından da layihənin rolu böyükdür. Yüksəkgərginlikli elektrik xətləri ölkələrin enerji sistemlərini daha sıx əlaqələndirəcək, fövqəladə hallarda qarşılıqlı enerji dəstəyi imkanlarını artıracaq və elektrik təchizatının dayanıqlılığını gücləndirəcək. Müasir texnologiyalar sayəsində enerji itkiləri minimuma enəcək və elektrik şəbəkələrinin səmərəliliyi yüksələcək.

Bu layihə Azərbaycanın beynəlxalq nüfuzunun artmasına da mühüm töhfə verəcək. Artıq ölkəmiz yalnız neft və qaz ixracatçısı deyil, həm də gələcəyin “yaşıl enerji” ixracatçısı kimi tanınmağa başlayır. Bu isə Azərbaycanın enerji diplomatiyasını daha da gücləndirəcək və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq imkanlarını genişləndirəcək.

Azərbaycanın həyata keçirdiyi enerji siyasəti təkcə iqtisadi gəlir əldə etmək məqsədi daşımır. Bu siyasət regionda sabitliyin, əməkdaşlığın və qarşılıqlı etimadın möhkəmləndirilməsinə də xidmət edir. Enerji layihələri ölkələr arasında uzunmüddətli tərəfdaşlıq yaradır, yeni investisiyaları stimullaşdırır və regional inkişafı sürətləndirir.

Gələcək illərdə elektrik enerjisinə tələbatın daha da artacağı gözlənilir. Elektrikli avtomobillərin geniş yayılması, sənayenin inkişafı və rəqəmsal texnologiyaların tətbiqi elektrik enerjisinin strateji əhəmiyyətini daha da artıracaq. Bu baxımdan, Azərbaycanın indidən yaratdığı müasir enerji infrastrukturu gələcək onilliklər üçün mühüm üstünlük hesab olunur.

Azərbaycan-Türkiyə yüksəkgərginlikli elektrik ötürmə xətti təkcə iki ölkəni birləşdirən texniki layihə deyil. Bu, ortaq tarixə, ortaq dəyərlərə və ortaq gələcəyə söykənən strateji əməkdaşlığın yeni mərhələsidir. Bu layihə Azərbaycanın enerji ixracını genişləndirəcək, “yaşıl enerji” potensialını dünyaya tanıdacaq və ölkəmizin regional enerji mərkəzi kimi mövqeyini daha da möhkəmləndirəcək.

Şübhəsiz ki, bu gün həyata keçirilən enerji layihələri sabahın iqtisadi inkişafına xidmət edir. Azərbaycan öz enerji siyasətini müasir dövrün tələblərinə uyğun quraraq regionun aparıcı enerji ölkəsi mövqeyini qoruyur və yeni uğurlara doğru inamla irəliləyir. Azərbaycan-Türkiyə enerji əməkdaşlığı isə bu uğurların ən parlaq nümunələrindən biri kimi tarixə düşəcək.

**Sahil ABDULLAYEV**
*Naxçıvan Dövlət Universitetinin Elektrik və elektronika mühəndisliyi ixtisasının IV kurs tələbəsi*

# Naxçıvanda taxılçılıqda yüksəliş:

## məhsuldarlıq artır, fermerlərin inamı möhkəmlənir



Prezident İlham Əliyevin bu il mayın 25-də imzaladığı Sərəncamla təsdiqlənən “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” aqrar sahənin davamlı inkişafı, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və istehsal-emal zəncirinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət Proqramında kənd təsərrüfatında məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi, fermerlərə dövlət dəstəyinin genişləndirilməsi və strateji məhsullar üzrə istehsalın artırılması əsas prioritetlər kimi müəyyənləşdirilib.

Proqramın mühüm istiqamətlərindən biri strateji əhəmiyyət daşıyan taxılçılıq sektorunun inkişafıdır. Sənədə əsasən 2030-cu ilədək ixtisaslaşmış rayonlarda buğda üzrə orta məhsuldarlığın hər hektardan 50 sentnerə çatdırılması, istehsalın, təxminən, 20 faiz artırılması və ölkənin özünütəminetmə səviyyəsinin yüksəldilməsi hədəflənir. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikasında da ardıcıl tədbirlər həyata keçirilir və artıq müsbət nəticələr müşahidə olunur. Muxtar respublikada bu il 13 min 778,1 hektar taxıl sahəsində biçin aparılıb və ötən illə müqayisədə məhsul istehsalında 22 faiz artım qeydə alınıb. Biçilmiş sahələrin 4108,2 hektarını buğda, 9669,9 hektarını isə arpa təşkil edib. Ümumilikdə, 45 min 914,2 ton taxıl istehsal olunub. Bunun 15 min 320,4 tonu buğdanın, 30 min 593,8 tonu isə arpanın payına düşüb. Taxıl üzrə orta məhsuldarlıq hər hektardan 33,3, o cümlədən buğda üzrə 37,3, arpa üzrə isə 31,6 sentner təşkil edib. Müqayisə üçün qeyd edək ki, 2025-ci ildə muxtar respublikada 15 min 29,4 hektar sahədən 37 min 648,8 ton taxıl toplanıb və orta məhsuldarlıq hər hektardan 25,1 sentner olub. Beləliklə, bu il taxıl istehsalının həcmi ilə yanaşı, məhsuldarlıq göstəricisində də əhəmiyyətli artım qeydə alınıb.

Babək rayonunda da taxılçılıqda yüksəliş müşahidə olunur. Bu il rayonda orta məhsuldarlıq 34,4 sentner olmaqla, 14 min 747,8 ton məhsul əldə edilib. Rayonun ən böyük təsərrüfatçılarından biri, Nəzərabad kənd sakini Asif Əliyev torpaq islahatı dövründən, etibarən, təxminən, 30 ildir, əkinçiliklə məşğuldur. Onun 30 hektara yaxın şəxsi torpağı var. Təsərrüfatçı 4 hektar sahədə yonca toxumu da yetişdirir.

Asif Əliyev “Şərq qapısı”na müsahibəsində bildirib ki, uzun illərdir, yonca toxumçuluğu ilə məşğul olur və Şahbuz rayonunun müxtəlif kəndlərindən fermerlər onun təsərrüfatından toxum alırlar. Təsərrüfatçı həmin toxumdan Bakı şəhərinə də göndərir. O həmçinin ildə 50-60 ton taxıl istehsal edir və məhsulunu, əsasən, Şahbuz rayonunun sakinlərinə satır. Fermer qiymətlərdə güzəşt etdiyini, hətta taxılı öz avtomobili ilə kənd



sakinlərinin evlərinə çatdırdığını da vurğulayıb.

Təsərrüfatçı qeyd edib ki, bu ilin mayında Prezident İlham Əliyevin taxılçılığın inkişafı ilə bağlı müşavirədəki çıxışından sonra fermerlərdə bu sahəyə maraq və inam daha da artıb. Bu onun öz təsərrüfatında da taxıl əkinlərini genişləndirməsinə təsir edib. Belə ki, ötən illə müqayisədə növbəti əkin mövsümündə taxıl sahəsini 5 hektar artıraraq 20 hektara çatdırıb. Lizinq xidmətlərinin də təsərrüfatçılar üçün mühüm dəstək olduğunu deyən Asif Əliyev texnika xidmətlərinin fermerlər üçün daha əlçatan olmasının əhəmiyyətini vurğulayıb.

Onun sözlərinə görə, Nəzərabadda torpağın şumlanması 100-120 manata başa gəldiyi halda, lizinq xidməti ilə bu məbləğ, təxminən, 50 manat təşkil edir.

Fermer yüksək məhsuldarlıq üçün yalnız əkin və şumun kifa-



yət etmədiyini, sahələrə vaxtında və düzgün qulluq göstərilməsinin də vacib olduğunu deyir. Onun fikrincə, toxum seçimi, vaxtında şum və səpin məhsuldarlığa ciddi təsir göstərir. O bildirir: “Şərurda bir fermerin əkdiyi “Alekseiç” sortundan yüksək məhsuldarlıq əldə olunub. Həmin sortdan hər hektardan 100 sentnerə qədər məhsul götürüldüyünü eşitdim. Artıq həmin fermerlə razılaşmışam və dərmanlanmış şəkildə, təxminən, 4 ton toxum gətirib əkməyi planlaşdırıram”.

Asif Əliyev suvarma məsələsinə də toxunaraq qeyd edib ki, onun sahələri su kanalından, təxminən, 2 kilometr məsafədə yerləşir. Suvarma imkanlarının yaxşılaşdırılması məhsuldarlığın artırılmasına mühüm töhfə verə bilər: “Şükür Allaha, Heydər Əliyev su anbarında suyumuz boldur. Bizi susuz qoymayıblar. Ancaq ərazinin böyüklüyü nəzərə alınmaqla suyun həcmi də artırılsa, suvarma prosesindəki çətinliyimiz tamamilə aradan qalxar. Beləliklə, məhsuldarlıq daha da artar”.

Digər bir təsərrüfatçı – Cəhri qəsəbə sakini Adəm Allahverdiyev isə ixtisasca aqronomdur, 22 ildir, təsərrüfat fəaliyyəti ilə məşğul olur. O qeyd edib ki, ötən il 7 hektarda taxıl, 2,5 hektarda qarğıdalı, 4,5 hektarda isə yonca əkib və yüksək məhsuldarlıq əldə edib. Bu il 10 hektara yaxın sahəni şum-



layıb. Təsərrüfatçı taxıl əkinlərini 10 hektardan yuxarı artırmağı, həmçinin qarğıdalı sahələrini genişləndirməyi planlaşdırır.

A.Allahverdiyev dövlət tərəfindən verilən subsidiyaların, lizinq yolu ilə texnika təminatının və gübrə dəstəyinin təsərrüfatçılara böyük kömək olduğunu vurğulayıb: “Dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunmuşuq. Əvvəllər azot verilirdi, indi fosfor gübrəsi verilir. Bu da məhsuldarlığın artmasına kömək edir”.

Naxçıvanda əldə olunan nəticələr göstərir ki, dövlət dəstəyi, müasir aqrar yanaşmalar və fermerlərin zəhməti bir araya gəldikdə taxılçılıqda daha yüksək göstəricilərə nail olmaq mümkündür. Dövlət Proqramının icrası çərçivəsində artan məhsuldarlıq və genişlənən əkin sahələri qarşıdakı illərdə müəyyənləşdirilən hədəflərə çatmaq üçün möhkəm zəmin yaradır. Ən əsası isə torpaqla çalışan insanların gələcəyə inamı artır. Bu inam isə Naxçıvanın əkin sahələrində yeni məhsuldarlıq göstəricilərinə çevrilir.



✍ **Nail ƏSGƏROV**

## Naxçıvan şəhərinin küçələri əsaslı təmir olunur

“Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxsin mətbuat xidmətindən verilən məlumata görə, ümumi uzunluğu 17,5 kilometr olan Naxçıvan şəhəri, S.Vurğun, N.Naxçıvani, M.H.Şəhriyar, H.Rəhmanov, 58-61-ci məhəllələr istiqamətində əsaslı təmir işlərinə başlanılıb.

Hazırda ərazidə yararsız qruntun qazılaraq çıxarılması, yeni yol yatağının və yol əsasının inşası istiqamətində işlər davam etdirilir. Layihə çərçivəsində avtonəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə 17,5 kilometrlik avtomobil yoluna 2 qat asfalt örtüyü döşənəcək.

Eyni zamanda Naxçıvan şəhəri, Xətai məhəlləsində uzunluğu 7,7 km olan avtomobil yolunda asfalt-beton örtüyünün döşənməsi işləri davam etdirilir. Yolun 4,5 km-ə yaxın hissəsi birinci qat asfalt örtüyü ilə təmin edilib və hazırda bu istiqamətdə işlər davam etdirilir.







# Azərbaycanın turizm siyasətində yeni mərhələ

## Yeni Dövlət Proqramında Naxçıvana da xüsusi diqqət var



Müasir cəmiyyətin sosial-iqtisadi inkişafında və insanların asudə vaxtının səmərəli keçirilməsində mühüm fəaliyyət sahəsi olan turizm, eyni zamanda dövlətin sosial siyasətinin də reallaşdırılmasının, regional inkişafın və beynəlxalq münasibətlərin tənzimlənməsinin ən yaxşı vasitələrindən biridir. Turizm ehtiyatları və qonaqpərvərlik elementləri ilə zəngin olan Azərbaycanın dünya turizm sənayesində tutduğu yer ölkəmizdə turizmin daha da inkişaf etdirilməsi, qeyri-neft sektorunun şaxələndirilməsi və dayanıqlılıq prinsipləri baxımından bu sahənin daim dövlət diqqətində saxlanılmasını zəruri edir. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" da bu baxımdan qarşıdakı illərdə turizm sahəsində strateji çərçivənin inkişaf etdirilməsi, zəruri tədbirlərin həyata keçirilməsi və digər təxirəsalınmaz işlərin reallaşdırılması baxımından mühüm dövlət sənədidir. Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasında da turizmin növbəti mərhələdə daha da inkişaf etdirilməsi ilə bağlı mühüm müddəalar yer alır.

Hazırda turizm dünyada neft və avtomobil istehsalından sonra üçüncü yerdə gələn nəhəng iqtisadi sahələrdən biridir. Qlobal rəqabət şəraitində turizm özünəməxsus trendləri izləməklə ölkələrin ümumi daxili məhsulunda və ixrac potensialında mühüm paya malik olmaqla yanaşı, digər sektorlara, xüsusən rəqəmsal iqtisadiyyata da ciddi təsir göstərir. Bu təsir yeni istehlakçı davranışlarının formalaşmasına, yeni turizm növlərinin yaranmasına, səyahətlər zamanı rəqəmsal alətlərdən, o cümlədən süni intellektdən istifadəyə maksimum səmərəlilik və təhlükəsizliyə nail olunmasına imkan yaradır. Eyni zamanda turizm dayanıqlı inkişaf və "yaşıl iqtisadiyyat"a keçidi sürətləndirən amil kimi hökumətlərin idarəetmə strategiyalarına da təsir göstərir.

Bu mənada, turizm sahəsində tənzimləmə, turizm biznesinin təşviqi, bu sahədə kadr hazırlığı və qanunvericilik bazasının təkmilləşdirilməsi hədəfləri Azərbaycanda diqqət mərkəzindədir və indiyə qədər qəbul olunmuş Dövlət proqramlarında da öz əksini tapıb. Qeyd olunan məqsədlərə çatmaq üçün isə dövlət əhəmiyyətli sənədlərdəki müddəaların günün tələbləri baxımından düzgün şərh olunması və cəmiyyətə çatdırılması turizm sahəsi üzrə ekspertlərin və medianın qarşısında mühüm vəzifə kimi dayanır.

Hazırda qarşıya qoyulmuş dayanıqlı inkişaf hədəfləri çərçivəsində turizmdən gözlənilən effektlər genişdir və bir sıra ciddi problemlərin həllinə yönəlmiş siyasətlə uzlaşır. Bu siyasət isə qlobal trendlərə cavab verməklə iqtisadi artım, dayanıqlı inkişaf, böhranlara davamlılıq, inklüzivlik və sosial məsuliyyət, ətraf mühitin mühafizəsi, tarixi-mədəni irsin qorunması və təbliği, turist məmnuniyyəti, texnoloji və regional inkişaf, beynəlxalq əməkdaşlıq və qlobal rəqabətlilik kimi istiqamətləri əhatə edir. Turizmin iqtisadiyyatın çoxşaxəliliyinə verdiyi dəstək və regional inkişafda rolu, bu mənada, ölkənin turizm subregionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında və işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında xüsusi aktuallıq kəsb edir. Sözügedən istiqamətlər Dövlət Proqramında da öz əksini tapıb. Dövlət Proqramında 2026-2030-cu illər üçün ölkəmizdə turizm idarəetməsi, tənzimləmə tədbirlərinin keyfiyyəti, regionlarda turizmin inkişafı və icmalar, brendinq və marketinq, turizm məhsulları və təcrübələri, rəqəmsallaşma və innovasiya, turizm statistikası və məlumat əsaslı təhlil, investisiya və dövlət-özəl tərəfdaşlığı, eləcə də insan resurslarının inkişafı prioritet istiqamətlər kimi müəyyənləşdirilib. Bu müddəalar, o cümlədən brendinq, marketinq, rəqəmsallaşma və insan resurslarının inkişafı bu sahədəki problemlərin həll olunması, cəmiyyətin bütün sahələrində olduğu kimi, turizm və rekreasiya servisləri sahəsində də yeni innovativ əsaslara keçilməsi, ölkəmizin turizm üzrə qlobal rəqabətə layiq olacağı səviyyəyə çatmaqda mühüm bir vasilə olacaq.

Hazırda bütün dünya ölkələri sürətli rəqəmsal dönüş mərhələsinə qədəm qoyub. Rəqəmsal platformalar, xüsusən süni intellekt əsaslı idarəetmə modelləri müxtəlif sahələrdə, o cümlədən turizmin planlaşdırılması və biznes modellərinin tətbiqində mühüm əhəmiyyət daşıyır. Dövlət, özəl sektor və icma maraqlarının təmin olunmasında bu imkanlardan səmərəli istifadə turizmin gələcək inkişafının əsas şərtlərindən birinə çevrilir. Ölkəmizin, o cümlədən Naxçıvan Muxtar Respublikasının turizm ehtiyatlarının rəqəmsal platformalarda təbliği, turizmdə mümkün ola biləcək onlayn xidmətlərin təşkili, hədəf bazarlarda mövqe qazanmaq, Azərbaycan brendi altında təqdim olunan turizm məhsulunun zənginləşdirilməsi və xüsusilə qonaqpərvərlik elementlərimizin turistlərə düzgün çatdırılması Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələrdəndir. Turizmin iqtisadiyyatda çoxaldıcı effekti və cəmiyyətin müxtəlif sahələrinə dinamik təsiri müvafiq dövlət qurumlarının birgə, koordinasiyalı fəaliyyətini tələb edir. Bu isə mümkün risklərin minimumlaşdırılması və neytrallaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsini zəruri edir. Dövlət Proqramında da bu məsələlərə konkret yanaşmalar müəyyənləşdirilib. Ölkəmizdə, xüsusilə turizm bölgələrində turizm destinasiyalarının formalaşdırılması, təbii, tarixi-mədəni resurslardan, sağlamlıq, qastronomiya və digər istiqamətlərdə turizm məhsulunun yaradılması üçün aidiyyəti qurumların vəzifələri də sənəddə öz əksini tapıb. Bu baxımdan, Dövlət Proqramının yaxın gələcəkdə gözlənilən nəticələrin əldə olunmasına mühüm təkan verəcəyi şübhəsizdir.

Naxçıvan Muxtar Respublikası ölkəmizin turizm ehtiyatları ilə zəngin regionlarından biridir. Ziyarət, müalicə, tanışlıq və ekoturizm məqsədilə səyahət edən turistlər üçün Naxçıvan maraqlı destinasiyadır. Bundan əlavə, Naxçıvanın dağ kəndlərində yaradılan istirahət məkanları həm aktiv, həm də passiv turlar üçün yerli turistləri də özünə cəlb edir.



Naxçıvan şəhəri, Şahbuz, Ordubad, Babək, Culfa və Şərur rayonlarında mövcud olan turizm resursları əhəmiyyətinə görə turproqramlarda yer tutub, tanışlıq məqsədilə regionumuza səyahət edən turistlərə bir neçə günlük mənalı səyahət vəd edir. Naxçıvandakı bir çox təbiət və tarixi-mədəni ehtiyatlar əhəmiyyətinə görə dünya mirasına daxil edilərək mühafizə edilir. Azərbaycan memarlıq sənətinin şah əsəri olan Möminə xatun türbəsinin dünya standartlarına uyğun şəkildə restavrasiya olunması, Ordubadın qədim hissəsinin, bu rayondakı Göygölün və Gəmiqayanın dövlət səviyyəsində qorunması Naxçıvandakı turizm ehtiyatlarına, onların cazibə gücünə verilən dəyərin ifadəsidir. Dövlət Proqramında "Regionlara turist səfərlərinin təşviq edilməsi" istiqamətində "Naxçıvan Muxtar Respublikasına turist səyahətlərinin təşkili şərtlərinin təkmilləşdirilməsi", Naxçıvana turist səfərlərinin artırılması üçün Bakı-Naxçıvan-Bakı istiqamətində turoperatorlar tərəfindən çarter uçuşlarının həyata keçirilməsi şərtlərinin müəyyənləşdirilməsi və turist paketinin satışı ilə birlikdə aviabiletlərin sifarişini təmin edən satış modelinin hazırlanması nəzərdə tutulur. Bu yanaşma Naxçıvanın gələcək nəqliyyat imkanlarının turizm məhsuluna çevrilməsi baxımından xüsusi perspektiv yaradaraq Naxçıvana səyahətlərin təşkilində turizm şirkətləri, aviaşirkət, yerləşmə müəssisəsi və digər xidmət təminatçılarının daha koordinasiyalı fəaliyyət göstərməsi üçün mexanizm formalaşdıracaq.

Dövlət Proqramının uğurlu icrası ilə Naxçıvan üçün ən aktual məsələlərdən biri kimi turistlərə səyahətin əlçatanlığını və turist səfərlərinin təşkilinin yaxşılaşdırılmasını da gündəmə gətirir. Bundan əlavə, proqramda Naxçıvan Muxtar Respublikası baxımından da həllivacib olan nəqliyyat və əlçatanlıq problemi, mövsümilik, kadr və xidmət keyfiyyəti məsələləri, eləcə də rəqəmsallaşmanın zəifliyi kimi məqamları da nəzərə almaq mümkündür. Belə ki, bir çoxlarının təsəvvüründə turizmin inkişafı yalnız regiona gələn turistlərin sayının artması ilə məhdudlaşır. Halbuki turizmin inkişafı bundan daha geniş anlayışdır. Dövlət Proqramının 2030-cu il üçün müəyyən etdiyi göstəricilər də bunu təsdiqləyir. Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin, təxminən, 40 faiz real artması, xarici turist xərcləri üzrə daxilolmaların, təxminən, iki dəfə artırılması, xarici turistlərin sayının isə orta hesabla illik 8,1 faiz artması nəzərdə tutulur.

Bütün bunlar onu göstərir ki, "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" növbəti dövr üçün daha çox gəlir yaradan, uzunmüddətli, rəqəmsal bazaya əsaslanan, keyfiyyətli, dayanıqlı və bütün regionlara, o cümlədən Naxçıvana və işğaldan azad olunmuş regionlarımıza yayılan turizm sisteminin formalaşdırılmasında mühüm strateji yol xəritəsi olacaq.

**Əli CABBAROV**



# Zəngəzur dəhlizi və Şərurun yeni inkişaf imkanları

## Xarici müəllif Şərurun turizm, kənd təsərrüfatı və ticarət potensialını necə qiymətləndirir?


Sharur's Future Along the Zangezur Corridor

THE PLATFORM

PETER MARKO TASE 08.10.2026

Orkhan Farmanli

The proposed Zangezur Corridor could transform Sharur from an overlooked corner of Nakhchivan into a regional hub for tourism, agriculture, and trade.

As the world contends with supply-chain disruptions, geopolitical tensions, and an

Zəngəzur dəhlizi Cənubi Qafqazın nəqliyyat xəritəsində mühüm dəyişikliklər yarada biləcək layihələrdən biri kimi diqqət çəkir. Layihənin reallaşmasının regional ticarətə, nəqliyyat əlaqələrinə, turizmə, enerji əməkdaşlığına və investisiyalara yeni imkanlar aça biləcəyi bildirilir. Lakin nəqliyyat dəhlizləri yalnız xəritə üzərindəki marşrutlardan ibarət deyil. Onların keçdiyi ərazilərin iqtisadiyyatı, tarixi, təbiəti və insan potensialı da gələcək inkişafın mühüm hissəsidir.

Xarici müəllif Peter Marko Tase də "International Policy Digest"də yayımlanan məqaləsində məhz bu yanaşmadan çıxış edərək Şərurun Zəngəzur dəhlizinin yaradacağı imkanlardan necə faydalana biləcəyini araşdırıb. Müəllifin fikrincə, Naxçıvanın qərb hissəsində yerləşən Şərur müasir turistlərin axtardığı bir sıra xüsusiyyətləri özündə birləşdirir. Münbit kənd təsərrüfatı torpaqları, zəngin mədəni irs, özünəməxsus kənd həyatı, təbii mənzərələr və strateji coğrafi mövqe rayonu gələcəkdə mühüm turizm və iqtisadi məkana çevirə bilər.

Naxçıvan Dövlət Universitetinin dosenti, "Şərq qapısı" qəzetinin əməkdaşı Əli Cabbarov müəllifə Şərurun tarixi və iqtisadi əhəmiyyəti barədə danışaraq rayonun məhsuldar kənd təsərrüfatı, sahibkarlıq ruhu və qonaqpərvərlik ənənələri ilə seçildiyini bildirib. 1930-cu ildə inzibati rayon kimi yaradılan Şərurun əhalisi 111 mindən çoxdur. 30 mindən artıq sakinin yaşadığı Şərur şəhəri Naxçıvan Muxtar Respublikasının ikinci böyük şəhər mərkəzidir. Rayonun əsas üstünlüklərindən biri isə əlverişli coğrafi mövqeyidir.

### Aqrar potensial və yeni bazarlar

Məqalədə Şərurun kənd təsərrüfatı imkanlarına xüsusi diqqət yetirilir. Rayonun iqlimi və münbit torpaqları burada erkən məhsul yetişdirilməsinə şərait yaradır. Müəllifin Şərura səfəri zamanı rayon İcra Hakimiyyətinin əməkdaşı Kamal İsmayılov bildirib ki, Şərurun torpaqları ildə iki dəfə məhsul götürməyə imkan verir. Fevralın sonlarından başlayan yaz mövsümü may ayının ortalarında artıq təzə kartof və rayonun məşhur göycəsinin əldə olunmasına şərait yaradır. Şərurun aqrar ənənələri yeni deyil. Sovet dövründə rayonun kənd təsərrüfatı məhsulları Azərbaycanın iri şəhərləri ilə yanaşı, Rusiyanın müxtəlif şəhərlərinə də göndərilib. Üzümçülük və şərabçılıq da rayonun iqtisadi tarixində mühüm yer tutub. Araz və Arpaçay çayları, eləcə də, təxminən, 150 milyon kubmetr su tutumuna malik arpaçay su Anbarı rayonun kənd təsərrüfatı və su təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır. Müəllif hesab edir ki, regional bağlantıların genişlənməsi yerli fermerlərin daha böyük bazarlara çıxışını asanlaşdıra, kənd təsərrüfatı məhsullarının emalı və logistika sahəsində yeni investisiyalara imkan yarada bilər.

### Şərurun turizm xəritəsində yeri

Şərurun turizm potensialı da məqalənin əsas istiqamətlərindən biridir. Rayonun Şahbulaq kəndinə gedən yol boyunca uzanan kanyonlar və qeyri-adi qaya formaları fotoqrafiya və macəra turizmi üçün maraqlı məkanlar kimi təqdim edilir. Ağrı dağına açılan mənzərə isə müəllifin diqqət çəkdiyi digər təbii üstünlüklərdəndir. Şərurun əhəmiyyəti yalnız təbii mənzərələrlə məhdudlaşmır. Rayon minilliklərə gedib çıxan insan məskunlaşmasının izlərini qoruyur. Tənənəm kəndində yerləşən Qazma mağarası Azərbaycanın mühüm Paleolit dövrü abidələrindən biridir. Yaxınlıqdakı qədim Oğlanqala yaşayış məntəqəsində aparılan arxeoloji tədqiqatlar isə qədim şəhər mədəniyyətinin izlərini və müdafiə tikililərini üzə çıxarıb. Qarasu qalası, Qızqala, Maxta nekropolları, Parçı İmamzadəsi, Piri Süleyman xanəgahı, tarixi Yengicə hamamı və ənənəvi buxarına da Şərurun zəngin mədəni landşaftının əsas elementləri sırasındadır. Müəllifin fikrincə, bu abidələri təbiət mənzərələri ilə birləşdirən piyada marşrutları, mədəni turlar, fotoqrafiya, quş müşahidəsi və ekoturizm layihələri rayonun turizm imkanlarını genişləndirə bilər.

### Kənd həyatı və kulinariya turizmi

Şərurun bağları, üzümçülük təsərrüfatları, ailə fermer təsərrüfatları və ənənəvi ərzaq istehsalı kulinariya turizmi üçün də imkanlar yaradır. Müasir turistlərin bir hissəsi artıq yalnız tarixi abidələri ziyarət etməklə kifayətlənmir. Onlar səfər etdikləri ərazinin gündəlik həyatını, yerli mətbəxini və ənənələrini yaxından tanımağa maraq göstərirlər. Bu baxımdan, Şərurda mövsümi məhsulların birbaşa təsərrüfatlarda təqdim olunması, kənd həyatı ilə tanışlıq, yerli yeməklərin hazırlanması və aqroturizm marşrutlarının yaradılması yeni turizm məhsullarının formalaşdırılmasına imkan verə bilər. Rayonun qonaqpərvərlik ənənələri də bu potensialı tamamlayan mühüm amillərdəndir.

### Dəhlizdən daha böyük imkanlar

Peter Marko Tase yazır ki, Zəngəzur dəhlizi ilə bağlı müzakirələrdə əsas diqqət yollar, dəmir yolları, gömrük məntəqələri və logistika mərkəzlərinə yönəlsə də, nəqliyyat infrastrukturu öz-özlüyündə davamlı inkişaf yaratmır. Əsas məsələ həmin bağlantı imkanlarından yerli icmaların necə faydalanacağıdır. Bu baxımdan, Şərurun təbii ehtiyatları, tarixi-mədəni irsi, kənd təsərrüfatı məhsuldarlığı və strateji mövqeyi onun üçün geniş inkişaf imkanları yaradır. Nəqliyyat əlaqələrinin genişlənməsi hotel, restoran, ailə tipli qonaq evləri, logistika xidmətləri, kənd təsərrüfatı məhsullarının emalı və kiçik sahibkarlıq sahələrinə investisiyaları stimullaşdıra bilər. Şərurun üstünlüyü yalnız coğrafi mövqeyində deyil. Rayon nisbətən kiçik ərazidə düzənliklərdən dağ mənzərələrinə, qədim mağaralardan tarixi abidələrə, kənd həyatından müasir nəqliyyat imkanlarına qədər müxtəlif xüsusiyyətləri birləşdirir. Müəllif hesab edir ki, Şərur üçün ayrı-ayrı turizm obyektlərini tanıtmaq əvəzinə arxeologiya, qastronomiya, kənd həyatı, ekoturizm və regional tarix istiqamətlərini birləşdirən kompleks marşrutlar hazırlamaq daha səmərəli ola bilər.



### Şərurun gələcəyi

Şərurun müasir tarixində Vətən müharibəsinin də xüsusi yeri var. Müəllif rayonun şəhidlərinin xatirəsinin Şərur şəhərindəki Şəhidlər Xatirə Kompleksində yaşadıldığını qeyd edir. Məqalədə vurğulanır ki, regional nəqliyyat layihələri inkişaf etdikcə Şərur Azərbaycanı, Türkiyəni və daha geniş Avrasiya məkanını birləşdirən yeni bağlantılardan faydalana biləcək rayonlardan birinə çevrilə bilər. Zəngəzur dəhlizinin gələcəyi yalnız daşınan yüklərin həcmi və qatarların hərəkət sürəti ilə ölçülməyəcək. Bu prosesin əhəmiyyətli göstəricilərindən biri də onun marşrut üzərində yerləşən yaşayış məntəqələrinə, o cümlədən Şərura gətirəcəyi iqtisadi imkanlar olacaq. Peter Marko Tasenin yanaşmasına görə, Şərurun əsas üstünlüyü onun təbiəti, tarixi, kənd təsərrüfatı və qonaqpərvərliyi ilə yanaşı, bu xüsusiyyətlərin bir məkanda və bir-birini tamamlayan şəkildə cəmləşməsidir. Beləliklə, Şərur gələcəkdə yalnız nəqliyyat dəhlizinin üzərində yerləşən rayon kimi deyil, turizm, aqrar istehsal, ticarət və regional iqtisadi əlaqələrin kəsişdiyi mühüm məkan kimi də diqqət çəkə bilər.

*Qeyd: Peter Marko Tasenin "Sharur's Future Along the Zangezur Corridor" məqaləsi əsasında hazırlanıb. Mənbə: "International Policy Digest".*

**"Şərq qapısı"**

# Torpağına Vurğun birinin səsi...



*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən.*
*Anam, doğma Vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

Bu misraları eşidəndə insanın yaddaşında yalnız bir şeir canlanmır. Sanki illərin o tayından bir səs gəlir – doğma torpaqdan, insandan danışan, sözün içində bütöv bir Azərbaycan yaşadan bir səs. Torpağına Vurğun birinin səsi...

Səməd Yusif oğlu Vəkilov 1906-cı ildə dünyaya göz açmışdı. Sonralar "Vurğun" təxəllüsü ilə Azərbaycan poeziyasının ən parlaq simalarından birinə çevrilən şairin yaradıcılığı XX əsr milli ədəbiyyatımızda mühüm mərhələlərdən birini təşkil etdi. Vətən, torpaq, xalq, ana dili, təbiət və insan duyğuları onun poeziyasının əsas damarını təşkil edirdi. Səməd Vurğunun yaradıcılığını yalnız müəyyən bir dövrün ədəbi hadisəsi kimi qiymətləndirmək qeyri-mümkündür. Çünki onun əsərlərində Azərbaycan insanının Vətənə bağlılığı, milli-mənəvi dəyərlərə sədaqəti elə ecazkar bir poetik dillə ifadə olunub ki, nəsillər dəyişsə də, bu şeirlər öz təsir gücünü əsla itirmir.

Təbiətən çoxşaxəli istedada malik olan Səməd Vurğun təkcə böyük şair deyil, həm də dramaturq, tərcüməçi, ictimai xadim idi. Cəmi 50 illik ömür sürən sənətkarın miras qoyduğu zəngin irs bu gün də tədqiqatçıların diqqət mərkəzindədir. 120 il əvvəl dünyaya gələn, 70 il əvvəl əbədiyyətə qovuşan Səməd Vurğun, əslində, özündən sonra bir ömürdən daha böyük bir ömür qoyub getdi. Bu müddətdə cəmiyyət dəyişdi, həyat tərzi yeniləndi, yeni nəsillər yetişdi. Ancaq Səməd Vurğunun adı və sözü dəyişmədi. Çünki həqiqi sənətin ömrünü təqvim müəyyən etmir. Prezidentin 2026-cı il 23 fevral tarixli Sərəncamı ilə şairin 120 illiyinin dövlət səviyyəsində qeyd olunması da məhz onun milli poeziyamızın inkişafındakı müstəsna rolunun və bədii irsinin əbədiyaşarlığının bariz göstəricisidir.

Söz yaşadıqca Səməd Vurğun da yaşayacaq. Bu ölməzliyi hiss etmək üçün Xalq şairini kitabların arasında axtarmağı qərara aldım. Yolumu Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasına saldım. Elə qapıdan girər-girməz şairin yubileyi münasibətilə hazırlanmış xüsusi sərgi diqqətimi çəkdi. Bəzən bir kitab rəfi insana uzun bir tarixdən daha çox şey danışır. Ən maraqlısı isə o idi ki, kitabların qarşısında dayanarkən Səməd Vurğunun ötən əsrin ortalarında yaşamış bir şair olduğunu düşünmürdüm. Sanki onunla eyni zamanın içində idim.

Burada kiril qrafikası ilə çap olunmuş, saralmış səhifəli nəşrlər latın qrafikası ilə işıq üzü görmüş təzə kitablarla qol-qola dayanıb. Eyni şair, eyni misralar, amma fərqli illər, fərqli oxucular... Bir vaxtlar Səməd Vurğunu kiril əlifbası ilə oxuyan ana-atalarımız, indi isə həmin kitabları latın qrafikası ilə vərəqləyən gənc nəsil. Aradakı illər çox şeyi dəyişib – əlifba dəyişib, həyat dəyişib, dünyanın ritmi başqalaşıb. Amma Səməd Vurğunun adı həmin kitabların üz qabığında yenə eyni qürurla, əvvəlki işıqla parıldayır.

Kitabxananın elmi işlər üzrə direktor müavini Yeganə xanım bildirdi ki, Səməd Vurğunun yaradıcılığına oxucuların marağı hələ də davam edir. Onun sözlərinə görə, kitabxanaya gələn oxucular şairin əsərləri ilə maraqlanır, yaradıcılığını oxuyur və onun zəngin ədəbi irsinə müraciət edirlər. Yeganə xanım sərgidə nümayiş olunan kitabları bir-bir göstərərək Səməd Vurğunun müxtəlif illərdə çap edilmiş əsərləri haqqında məlumat verdi.

Sərgidə şairin "Seçilmiş əsərləri"nin beş cildinin nümayiş etdirilməsi isə xüsusilə diqqətimi çəkdi. Beşcildlik bu nəşr bir şairin yaradıcılıq dünyasının nə qədər geniş olduğunu göstərməklə yanaşı, onun sözünün illər sonra da oxucuya çatdığını sübut edən nümunələrdən biridir. Kitabxana rəflərində onun yalnız öz əsərləri deyil, yaradıcılığı haqqında yazılan elmi-tədqiqat əsərləri də yer alır. Çünki Səməd Vurğun haqqında danışmaq heç vaxt bir neçə cümlə ilə bitməyib, bitməyəcək də. Filoloqlar illərdir, onun dilini, üslubunu, milli düşüncə dünyasını araşdırır. Hər yeni tədqiqat şairin yaradıcılığına başqa bir pəncərə açır. Amma bir sənətkarın böyüklüyünü hər şeydən çox onun oxucusu müəyyən edir. Məktəblər şeirlərini əzbərləyir, tələbələr onun haqqında düşünür, ədəbiyyatsevərlər hər dəfə bu kitablara yenidən sığınırlar.

Səməd Vurğun sözünün ömrü yalnız kitab səhifələrində məhdudlaşmır. Onun dramaturgiyası müxtəlif illərdə teatr səhnələrinə daşınaraq başqa bir ömür qazanıb. Aktyorun səsində, obrazın hərəkətində, tamaşaçının baxışında. Beləcə, vaxtilə kağız üzərinə köçürülmüş söz illər sonra canlı insanın səsinə çevrilir. "Vaqif" dramında səsləndiyi kimi: "Əyilməz vicdanın böyük heykəli!" Səməd Vurğunun özü də Azərbaycan ədəbiyyatında məhz belə bir əbədi heykəldir.

Kitabxanadakı guşəyə bir daha baxıram. Rəflərdə sıralanan kitablar sanki susmur. Hər biri öz dili ilə eyni həqiqəti söyləyir: "Səməd Vurğunun sözü yalnız bir dövrə deyil, gələcəyə ünvanlanıb. O sözün içində Vətən var, Azərbaycan var, torpaq var. Zaman insan ömrünü bitirə bilər, amma həqiqi sənətin ömrünü bitirə bilməz. Səməd Vurğunun əbədiyyəti də elə burada başlayır – sözündə, Vətən sevgisində və onu hər yeni nəsillə yenidən yaşadan oxucusunda..."

**Səmayə RƏSULOVA**

# Zəhmətin bəhrəsi: Naxçıvanın dörd məzununun uğur hekayəsi

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin imzaladığı əmrlə 2025-2026-cı tədris ilində ümumi təhsil müəssisələrini yüksək nəticələrlə başa vuran məzunlar qızıl və gümüş nişanlarla təltif olunublar. Naxçıvan məktəblərinin dörd məzunu da bu siyahıda yer alaraq iki qızıl və iki gümüş nişana layiq görülüb. Bəs bu nəticənin arxasında hansı zəhmət, əzm və məqsədlər dayanır? “Şərq qapısı” olaraq dörd məzunun uğur hekayəsini dinlədik.

Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin məzunu Ərsadiq Cabbarlı yüksək nəticəsi ilə seçilərək qızıl nişana layiq görülüb. O, təhsilini Türkiyənin Orta Doğu Texniki Universitetində Aerokosmik mühəndislik ixtisası üzrə davam etdirməyi planlaşdırır. SAT imtahanında 1600 baldan 1530 bal toplayan Ərsadiq, həmçinin Ümummilli Lider Heydər Əliyevin 103-cü ildönümünə həsr olunan təqdimat müsabiqəsində III yerə layiq görülüb.

Qızıl nişana layiq görülməsini böyük sevinc hissi ilə qarşılayan gənc bu nəticəni uzun müddət davam edən hazırlığın və zəhmətin bəhrəsi kimi qiymətləndirir. Onun fikrincə, hazırlıq prosesində ən vacib məsələlərdən biri vaxtı düzgün bölüşdürməkdir. Ərsadiq gündəlik planını əvvəlcədən hazırladığını, dərslə yanaşı, sosial həyatına, idmana və digər maraqlarına da vaxt ayırdığını bildirir. Onun bu mərhələdə uğur qazanmasında məktəb rəhbərliyinin, müəllimlərinin və ailəsinin dəstəyi də mühüm rol oynayıb. Ərsadiq hesab edir ki, nəticə əldə etmək üçün istedad və zəhmət bir-birini tamamlamalı, qarşıya qoyulan məqsəd isə bütün bu səylərə istiqamət verməlidir. Çətinliklərlə qarşılaşdıqda onu irəli aparan əsas amilin də məhz gələcək hədəfləri olduğunu deyir. Gəncin ən böyük arzusu ali təhsilini uğurla başa vuraraq seçdiyi ixtisas üzrə fəaliyyət göstərmək və qazandığı bilikləri peşəsində tətbiq etməkdir.

Qızıl nişanla təltif olunan məzunlardan biri də Culfa rayonunun Saltaq kənd tam orta məktəbinin yetirməsi Murad Zülfüqarovdur. 585 bal toplayan Murad təhsilini Naxçıvan Dövlət Universitetində Əczaçılıq ixtisası üzrə davam etdirəcək. Uğuru illərlə çəkdiyi zəhmətin və əməyin bəhrəsi kimi dəyərləndirən Murad bu xəbəri böyük sevinc və qürur hissi ilə qarşılayıb. Hazırlıq dövründə günün böyük hissəsini dərslərə ayıran gənc üçün yorğunluq və vaxt çatışmazlığı əsas çətinliklərdən olub. Qarşısına qoyduğu məqsəd isə bu çətinlikləri geridə qoymasına kömək edib.

Bu prosesdə ailəsinin mənəvi dəstəyini və müəllimlərinin istiqamətləndirməsini xüsusi qeyd edən Murad onları uğura aparan yolun vacib hissəsi hesab edir. Onun fikrincə, müəllim yalnız bilik verən deyil, şagirdin özünə inanmasına və doğru istiqamət seçməsinə kömək edən insandır. O, yüksək nəticə əldə etmək istəyən şagirdlərə səbirli olmağı, əzmlə çalışmağı və öyrənməkdən zövq almağı tövsiyə edir.




Yüksək nəticə göstərərək gümüş nişana layiq görülən Fidan Babayevanın hekayəsində də zəhmət və məqsəd əsas yer tutur. Babək rayonunun Şəkərabad kənd tam orta məktəbinin məzunu 544 balla fərqlənib. O, təhsilini Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər fakültəsində davam etdirəcək.

“Yüksək nəticənin əsas şərtlərindən biri özünü sevməkdir”, – deyən Fidan üçün əldə etdiyi uğur məktəb illərində göstərdiyi səylərin nəticəsidir. Onun fikrincə, məsuliyyətli olmaq, qarşıya aydın məqsədlər qoymaq və həmin məqsədə doğru inamla addımlamaq uğuru şərtləndirir. Fidan məktəb illərində müxtəlif müsabiqə və olimpiadalarda da fəal iştirak edib. RFO-da Azərbaycan dili və ədəbiyyat fənni üzrə bir neçə dəfə yarımfinal mərhələsinə vəsiqə qazanıb, inşa və şeir müsabiqələrində yer tutub. Ulu Öndər Heydər Əliyevin 101-ci ildönümünə həsr olunan “Ən yaxşı təqdimat” müsabiqəsində isə respublika birincisi olaraq Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən diplom və hədiyyələrlə təltif edilib.

Dərslə yanaşı, sosial aktivliyə də maraq göstərən Fidan müxtəlif tədbirlərdə aparıcı kimi çıxış edib, nitqi və diksiyası üzərində çalışıb. Gələcəkdə özünü diplomat kimi görən gəncin ən böyük arzusu Azərbaycanı beynəlxalq aləmdə layiqincə təmsil etmək və ölkəsinin adını daha da yüksəklərə qaldırmaqdır.

Həmsöhbətlərimizin hekayəsində ortaq məqamlar olsa da, hər birini bu nəticəyə aparan yolu fərqlidir. Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin məzunu Solmaz Ələkbərli də yüksək nəticəsi ilə seçilən gənclərdəndir. 643 bal toplayan Solmaz gümüş nişana layiq görülüb və təhsilini Naxçıvan Dövlət Universitetində tədrisi ingilis dilində olan Hüquqşünaslıq ixtisası üzrə davam etdirəcək.

Solmaz bu nəticəni illər ərzində göstərdiyi əzmkarlığın və zəhmətin qarşılığı hesab edir. Onun fikrincə, yüksək nəticə əldə etmək üçün məsuliyyətli və sistemli çalışmaq vacibdir. İmtahana hazırlıq zamanı hər səhər görəcəyi işləri əvvəlcədən müəyyənləşdirdiyini və gündəlik dərs sisteminə əməl etdiyini deyən Solmaz bunun mövzuları daha yaxşı mənimsəməsinə və təkrar üçün vaxt qazanmasına kömək etdiyini bildirir.

Onun maraq dairəsi yalnız hüquqla da məhdudlaşmır. Uşaqlıqdan yazıçılığa maraq göstərən Solmaz 9-cu sinifdə 140 səhifəlik psixoloji-kriminal roman – “Vicdanlı qatillər” əsərini yazıb. Gələcəkdə hakim olmaqla yanaşı, yazıçılıq fəaliyyətini də davam etdirmək niyyətindədir.

Bu məzunların hekayələri göstərir ki, məktəb illərində göstərilən hər bir səy gələcək arzulara gedən yolun mühüm addımına çevrilə bilər. Qarşıda onları yeni bir təhsil mərhələsi, yeni hədəflər və arzular gözləyir.

✍ **Zəhra VƏLİYEVA**

# Gimnaziyanın əsas hədəfi 100 faizlik qəbul ənənəsini qorumaq və qızıl nişan qazananların sayını artırmaqdır



Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziya 2025-2026-cı tədris ilini növbəti uğurla yekunlaşdırıb. Təhsil ocağının 54 məzununun hər birinin ali təhsil müəssisələrinə qəbul olunması gimnaziyanın növbəti 100 faizlik göstəricisidir. Yüksək təhsil keyfiyyətini nümayiş etdirən məzunlardan 31-i 500-700 bal intervalında nəticə göstərib, 30-u tam orta təhsil haqqında fərqlənmə attestatına layiq görülüb, Hüseyn Tahirov və Kənan Məmmədzadə isə qızıl nişanla təltif olunublar.

Gimnaziyanın direktoru Nazim Rəhimov bildirir ki, ötən tədris ilində də 100 faizlik nəticə əldə olunub: “2024-2025-ci tədris ilində bizim 36 məzunumuz oldu və onların hər biri ali təhsil müəssisələrinə qəbul oldu. Həmin il məzunlarımızdan 16-sı yüksək nəticə göstərmişdi. 2025-2026-cı tədris ilində isə həm məzunlarımızın sayı artdı, həm də yüksək nəticə göstərən şagirdlərimizin sayı əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə yüksəldi. İki tədris ilinin nəticələrini müqayisə etdikdə yüksək nəticə göstərən məzunlarımızın sayında 97 faiz artım müşahidə olunub. Eyni zamanda bu il məzunlarımızın ixtisas seçimində tibb istiqamətinə maraq xüsusilə yüksək olub. Ümumilikdə, 28 məzunumuz Tibb ixtisasını seçib. 26 məzunumuz isə Naxçıvan Dövlət Universiteti və digər ali təhsil müəssisələrinin müxtəlif ixtisaslarına qəbul olub. Onlar arasından 4 şagirdimiz Türkiyə universitetlərinə qəbul olunub”.

Nazim Rəhimov əldə olunan nəticənin təsadüfi olmadığını vurğulayır: “Gimnaziyada tədris yüksək peşəkarlığa malik müəllimlər tərəfindən aparılır. Tədrisin düzgün qurulması ilə yanaşı, şagirdlərin olimpiadalara və müxtəlif müsabiqələrə hazırlanmasına da xüsusi diqqət yetiririk. Gimnaziyada bunun üçün Olimpiada Mərkəzimiz fəaliyyət göstərir. Burada şagirdlər və müəllimlər müxtəlif fənlər üzrə hazırlıq keçirlər. Tədrisin düzgün qurulmasının əsas səbəblərindən biri də şagirdlərin burada saat $18^{00}$-dək tədrisdə olmalarıdır. Tədris bizdə ikinövbəli təşkil olunur. İkinci növbədə aşağı sinif şagirdləri fənn müəllimlərinin iştirakı ilə növbəti günün dərslərinə hazırlaşırlar. Yuxarı sinif şagirdləri isə Dövlət İmtahan Mərkəzinin qaydalarına uyğun şəkildə imtahanlara hazırlanırlar. Əlavə olaraq gimnaziyanın uğurlarında maddi-texniki bazanın gücləndirilməsinin də böyük rolu var. Artıq keçən tədris ilində gimnaziyanın infrastrukturu yenidən qurulub”.



Məzunların ali təhsil seçimində Naxçıvan Dövlət Universitetinin imkanlarının mühüm rol oynadığını bildirən Nazim Rəhimov universitetdə əcnəbi müəllimlərin fəaliyyət göstərdiyini, ikili diplom proqramlarının və müxtəlif təqaüd imkanlarının olduğunu diqqətə çatdırır. Xüsusilə Tibb ixtisasına marağın artmasının səbəblərindən biri kimi burada tədrisin ingilis dilində aparılmasını və xaricdən dəvət olunan müəllimlərin fəaliyyətini göstərir.

Bu uğurun diqqətçəkən məqamlarından biri isə Hüseyn Tahirov və Kənan Məmmədzadənin qızıl nişana layiq görülməsidir. Yüksək buraxılış və qəbul imtahanı nəticələri ilə yanaşı, “Sabahın alimləri” XV Respublika Müsabiqəsində əldə etdikləri nailiyyət də onların qızıl nişanla təltif olunmasına imkan yaradıb.

Kənan Məmmədzadə üçün bu uğur müəyyən mənada gözlənilən olsa da, nəticənin yaratdığı sevincin daha böyük olduğunu deyir: “Düzünü desəm, qızıl nişan mənim üçün tam gözlənilməz olmadı. Çünki 11 il ərzində buna doğru planlı şəkildə getmişdim. Nəticə elan olunanda isə yenə də xüsusi bir hiss yaşadım. Ölkə üzrə 149 nəfərdən biri olmaq insanı həm sevindirir, həm də məsuliyyət hissi yaradır. Məni ən çox motivasiya edən gördüyüm işin baş verən problemi həll etdiyini görmək idi. Robototexnika və proqramlaşdırma məndə daim “Bunu daha yaxşı etmək olar” düşüncəsini formalaşdırıb. Bu da həm dərslərimə, həm də layihələrimə böyük enerji verib. Təbii ki, ailəmin və müəllimlərimin mənə olan inamı da bu yolda mühüm dəstək olub. Qızıl nişanı mənim üçün 11 illik mərhələnin məntiqli yekunu hesab edirəm. Bu, keçmişdə gördüyüm işlərin qiymətləndirilməsidirsə, Kompüter mühəndisliyi ixtisasına qəbul olmağım artıq gələcəyə açılan yeni qapıdır. Yəni bir tərəfi yekundur, digər tərəfi isə başlanğıcdır. Mən ikinci tərəfi daha vacib hesab edirəm”.

Kənanın ixtisas seçimində məktəb illərində üzərində işlədiyi layihələr mühüm rol oynayıb: “Məktəb illərində üzərində işlədiyim layihələr də ixtisas seçimimə böyük təsir göstərib. “Sabahın alimləri” müsabiqəsində “ReseptPlus” layihəsi ilə kompüter elmləri üzrə I yer qazandım. Daha sonra “BioScript” – barmaq izi əsaslı biometrik tibbi sistem layihəsi üzərində çalışdım. Bu layihələr mənə göstərdi ki, məni cəlb edən sırf kod yazmaq deyil, texnologiya vasitəsilə insanların gündəlik problemlərini həll etməkdir. Ona görə də tədrisi ingilis dilində olan kompüter mühəndisliyini seçdim. Gələcəkdə özümü həm mühəndis, həm də öz məhsulunu qurub inkişaf etdirən bir komanda rəhbəri kimi görürəm.

Robototexnika və proqramlaşdırma ilə bağlı marağım müxtəlif olimpiada və müsabiqələrdə iştirak etməyimə də imkan yaradıb. Dünya Robot Olimpiadasında İzmir və Panamada iştirak etmişəm, Respublika Robot Olimpiadasında da isə I yerə layiq görülmüşəm. Bu yarışların mənə ən böyük töhfəsi həm də məhdud vaxtda işləmək, komanda qurmaq və uğursuzluqdan sonra yenidən başlamaq bacarığı olub. Beynəlxalq mühitdə öz həmyaşıdlarımla eyni masa arxasında olmaq da öz imkanlarıma baxışımı dəyişib”.

Kənanın qarşıdakı əsas hədəfi “ReseptPlus” layihəsini işlək və real istifadəyə hazır məhsula çevirməkdir. Bununla yanaşı, bakalavr təhsilini yüksək nəticələrlə başa vuraraq magistratura üçün beynəlxalq səviyyəli universitetə, xüsusilə ABŞ-da Nyu-York Universitetinə qəbul olmaq istəyir.

Hüseyn Tahirov üçün də qızıl nişan uzun illər ərzində qarşısına qoyduğu məqsədlərdən birinin reallaşmasıdır: “Müsabiqədə qazandığım qızıl medal və buraxılış imtahanında əldə etdiyim yüksək nəticədən sonra bu uğur mənim üçün gözlənilməz olmadı. Orta məktəbdə oxuyarkən qarşıma bir sıra məqsədlər qoymuşdum. Bunların sırasında arzusunda olduğum Tibb ixtisasına yüksək balla qəbul olmaq və təhsildə xüsusi nailiyyətə görə qızıl nişanla təltif olunmaq da var idi. Qəbul olduğum Tibb ixtisası uşaqlıqdan bəri arzum olub. İnsanlara kömək etmək, onlara ümid işığı olmaq məni çox xoşbəxt hiss etdirir. Gələcəkdə özümü həkimlik peşəsində çox uğurlu görürəm. Təhsilimi davam etdirərək bilik və bacarıqlarımı daha da inkişaf etdirmək, sonrakı mərhələdə isə əldə etdiyim biliklərlə Vətənimə və xalqıma xidmət etmək əsas hədəflərimdəndir”.

Hüseyn məktəb illərində çoxsaylı fənn olimpiadaları və müsabiqələrdə iştirak edib, bir çoxunda uğurlu nəticələr əldə edib. Onun sözlərinə görə, həmin nailiyyətlər qızıl nişana layiq görülməsində də mühüm rol oynayıb.

Hər iki məzunun fikirlərində ortaq məqam isə uğurun yalnız istedadla məhdudlaşmamasıdır. Onların qənaətinə görə, istedad düzgün istiqamətləndirmə və davamlı əməklə müşayiət olunanda real nəticəyə çevrilir.

Gimnaziyanın qarşıdakı əsas hədəfi isə artıq ənənəyə çevrilən 100 faizlik qəbul nəticəsini qorumaqla yanaşı, qızıl nişan qazananların sayını artırmaqdır.

✍ **Elnurə CƏFƏROVA**

# Ağ-qara xatirələrlə dolu 18 illik sənət yolu...

## "Şərq qapısı"nın ilk peşəkar fotoqrafı Davud Kəngərli ilə müsahibə



**...Zəng edib onunla görüşmək istədiyimizi bildirəndə xeyli sevindi. Bu görüşün təsadüfi olmadığını, "Şərq qapısı" qəzeti üçün müsahibə alacağımızı deyəndə isə xoşbəxtliyi daha da artdı. Çünki o, peşə fəaliyyətinin düz 18 ilini bu qəzetə həsr etmişdi. Səsinin titrəməsindən, ard-arda verdiyi səmimi suallardan sevincini hiss etmək çətin deyildi. Müsahibim ömrünün 20 ildən çoxunu doğma Naxçıvandan kənarda, paytaxt Bakıda keçirib. İndi ömür nərdivanının 80-ci pilləsinin yaxınlığında dayanıb. Keçmişə boylandıqca gözləri qarşısında uşaqlıq illəri, gəncliyi, sənət yoldaşları ilə keçirdiyi xoş günlər canlanır. Taleyin işinə bax ki onun sənət dünyası da ağ-qara kadrlardan ibarət olub. O bu sənəti ilə yalnız ötüb keçən zamanı əbədiləşdirməyib, həm də Naxçıvanın bir dövrünün tarixini yaddaşlara köçürüb. Onunla Yusif Məmmədəliyev küçəsində, hazırda yaşadığı mənzildə həmsöhbət olduq. Səmimi qarşılanmadan sonra həyat yoldaşı Nuridə xanımın hazırladığı çay süfrəsi ətrafında müsahibəyə başladıq. Məlumat üçün qeyd edək ki, Davud Kəngərli 1948-ci ildə Naxçıvan şəhərində doğulub. O, Azərbaycan tarixində mühüm yeri və xidmətləri olan Kəngərlilər nəslindəndir.**

*– Davud müəllim, xoş gördük sizi. İllər sonra ata yurdunuzda, bir zamanlar çalışdığınız qəzetə müsahibə vermək necə hissdir?*

– Xoş gördük. 80 yaşın astanasında olmağıma baxmayaraq, özümü yaxşı hiss edirəm. Mən də doğma "Şərq qapısı"nın yaradıcı kollektivini və qəzetin oxucularını salamlayıram. Sağ olun ki, bizi yad etmisiniz… Zəng edib müsahibə üçün görüşmək istədiyinizi deyəndə xeyli sevindim. Bir neçə saniyəlik telefon danışığında sanki o illərə qayıtdım. Bilirsiniz, yaş irəlilədikcə insan unudulmaqdan qorxur. Deyəsən, qocalığın ilk əlaməti də elə budur – unudulmaq qorxusu.

*– Bu illər ərzində çalışdığınız kollektivdən gəlib sizi ziyarət edən olmayıb?*

– Mənim arzuladığım, darıxdığım insanlardan gəlib-gedən olmayıb. Bakıya köçəndən sonra Naxçıvanla əlaqəm tamam kəsildi. Zəng edib hal-əhval tutanların sayı azaldı. Hətta ötən gün köhnə dostlardan biri ikimizin xatirə fotosunu sosial şəbəkədə paylaşmışdı. Tanıyanlar şərhlərdə yazıblar ki, Allah Davud əmiyə rəhmət eləsin. Bu hadisə yoldaşımla mənə çox pis təsir etdi. Məyus halda öz-özümə dedim: "Axı mən ölməmişəm…"

*– Soyadınızdan da məlum olur ki, Kəngərlilər nəslindənsiniz. Bu nəslə mənsub olmaq böyük məsuliyyətdir.*

– Doğrudur. Ata-babamdan Kəngərlilər nəsli barədə çox eşitmişəm. Bu nəsil bizim üçün, sadəcə, bir soyad deyil, keçmişdən bu günə gələn bir ad, bir kök və bir ailə bağıdır. Bilirsiniz, Kəngərlilər qədimdən bəri bu torpaqlarda yaşayıb. Əvvəllər bu tayfa Azərbaycanda Kəngərlilər kimi tanınıb, daha sonra Naxçıvanski soyadını götürüblər. Deyilənlərə görə, XVII əsrdə Şah Abbasın əmri ilə Naxçıvan torpağına ayaq basmış, zamanla bu yerlərdə kök salmışıq. Böyüklərimizdən də eşitmişik ki, bu nəslin nümayəndələri hər zaman öz adını, adət-ənənəsini qoruyub saxlayan şəxsiyyətlər olublar…

*– "Şərq qapısı" qəzeti ilə necə tanış oldunuz?*

– 1968-ci ildən qəzetdə fəaliyyətə başladım. Adi günlərdən biri idi. "Şərq qapısı" redaksiyasının yanından keçərkən pəncərədən qəzetin ovaxtkı redaktoru Rəşid Qazıbəyovu gördüm. Mənə işarə etdi ki, qəzetə gəl. Getdim. Qarşıma bir vərəq və qələm qoydu, ərizə yazmağımı istədi. Ərizəni yazıb getdim. Həmin vaxt Naxçıvan Televiziyasında işləyirdim. Üç ay sonra redaksiyaya gəlib ərizənin aqibətini soruşdum. Rəşid müəllim də dedi ki, yaxın günlərdə gəl və işinə başla. Beləliklə, televiziyadan öz ərizəmlə ayrılıb "Şərq qapısı"nda fəaliyyətə başladım.

*– Televiziyadan ayrılmağınız rəhbərlikdə etiraz yaratmadı?*

– Yaratdı. Televiziyanın ozamankı sədri Fərman Tağıyev "Şərq qapısı"na getdiyimi eşidib acıqlanmışdı. Hətta televiziyanın elan guşəsinə yazıb vurmuşdu ki, guya məni özü işdən qovub. Mən də etiraz etdim və bildirdim ki, televiziyadan öz ərizəm əsasında ayrılmışam.

*– Qəzetə alışmaq çətin olmadı?*

– Yox, olmadı. Çətin olan fotoların çəkilməsi, peşəkar səviyyədə qəzetə yerləşdirilməsi və vaxtında çapa verilməsi idi. Ümumiyyətlə, qəzetçilik çox çətin iş idi. Naxçıvandan rayonlara – hadisə yerlərinə getmək, operativ şəkildə fotolar çəkmək asan deyildi. Daim ayaq üstə, hadisələrin və insanların içində olmalı idin.

*– Qəzetin o illərdə çap olunan nömrələrində tənqidi fotolar da görürük. Onları xüsusi tapşırıqla çəkirdiniz?*

– Baş redaktor məni yanına çağırıb deyirdi ki, qəzetin "Xalq nəzarəti" səhifəsində tənqidi yazı getməlidir, bunun üçün maraqlı fotolar çəkilməlidir. Bundan sonra şəhərin müxtəlif yerlərindəki nöqsanları fotoaparatın yaddaşına köçürürdük. Mənim 18 illik fəaliyyətimin ən doğma xatirələri də məhz bu tənqidi fotolarla bağlıdır.

*– Bəs tənqidi fotoların çəkilməsi, ictimai qınaq öz nəticəsini verirdi? Ən əsası, sizə qarşı təzyiqlər olmurdu ki?*

– Əlbəttə, olurdu. Xüsusən yüksək statuslu dövlət idarələri haqqında tənqidi materiallar hazırlayanda aqressiv hallarla rastlaşırdıq.

Bir dəfə şəhərin mərkəzi meydanındakı fəvvarənin işləmədiyi barədə dostlardan biri mənə məlumat verdi. Həmin yerə getdim, çəkiliş apardım və qəzetdə buna münasibət bildirildi. Nəticədə, problem aradan qalxdı. Dost-tanışlar buna görə mənə təşəkkür edirdi. O illərdə ziyalı sözünə, tənqidə qiymət verənlər çox idi.

*– 18 illik fəaliyyətiniz ərzində neçə baş redaktorla işləmisiniz?*

– Rəşid Qazıbəyov, Vahid Bağırov və Sənubər Kərimova ilə. Hər üçü yaxşı insan idi. Rəşid müəllim tələbkar və əsəbi insan kimi yadımda qalıb. Vahid Bağırov alicənab və kübar şəxsiyyət idi. Sənubər xanım da təmkinli, təvazökar insan idi. Rəşid müəllimlə Vahid müəllim haqq dünyasındadır. Sənubər xanım – əmim qızı hazırda Bakıda yaşayır.

*– Çəkdiyiniz fotoların, əlinizdə olan arxivlərin aqibəti necə oldu?*

– Hamısını Bakıya köçərkən Naxçıvan Dövlət Arxiv İdarəsinə verdim. Yalnız şəxsi fotoları özümdə saxladım.

*– Nə qədər foto təqdim etdiniz?*

– 20 mindən artıq seçmə foto. Bu fotolar Naxçıvan şəhərinin görüntülərini, eləcə də 1960-1980-ci illər arasında muxtar respublikanın ümumi mənzərəsini əks etdirən qiymətli kadrlardır.

### "Şərq qapısı" qəzeti – 105

*– Naxçıvanın yüksəkliklərdən çəkilmiş fotoları xüsusilə maraqlıdır. O dövrdə belə çəkilişləri*



*necə edirdiniz?*

– Söhbətin hansı kadrlardan getdiyini bilirəm. Həmin çəkilişlər xüsusi icazə ilə həyata keçirilirdi. Dövlət tərəfindən helikopterlər ayrılırdı. Muxtar respublikanın yaranmasının 50 illik yubileyində Bakıdan fotomüxbir Hüseyn Hüseynzadə gəlmişdi. Naxçıvanın səmadan fotolarını çəkmək üçün ikimizi ayırmışdılar. İkimiz də hərbidən alınan helikopterlə Naxçıvanın səmadan maraqlı fotolarını çəkdik. Həmin fotolar da hazırda arxivdə qorunur. Onlar mənə çox doğmadır.

*– Ulu Öndər Heydər Əliyevin Naxçıvana səfərlərində fotoları siz çəkirdiniz?*

– Naxçıvan üçün fotoları mən çəkirdim. Ancaq Ümummilli Lider Bakıdan gələndə onunla birgə fotoqraf da gəlirdi. Həmin illərdə səfərləri Yaşar Xəlilov çəkirdi. Bakıdan gələn fotomüxbirləri hadisə yerlərinə aparmaq da mənim öhdəliyimdə idi.

*– Texnikanın zəif olduğu bir vaxtda ani kadrları necə çəkirdiniz?*

– Çox çətin olurdu. Xüsusən dövlət tədbirlərində. Aparatlar zəif idi, ani çəkilişlər aparmaq çətinləşirdi. Bir məqamı da qeyd edim. Görüşlər zamanı fotokameranın obyektivinə baxaraq gülümsəmək, çəkiliş zamanı səmimi atmosfer yaratmaq ənənəsini sənətimizə Heydər Əliyev gətirdi. Fotoqraflar bəzi məsul şəxslərin fotomüxbirlərlə işləyə bilmədiklərini söyləyəndə o bu məsələyə diqqət yetirirdi. Obyektivə baxır, fotoqrafı gözləyir və rahat işləməsinə şərait yaradırdı. Sonralar bu, bir ənənəyə çevrildi.

*– Bəs fotoaparatın obyektivindən kənarda gördüyünüz Heydər Əliyev necə insan idi?*

– Çox mədəni və alicənab şəxsiyyət idi. İş fəaliyyəti gərgin olsa da, xalqla daim iç-içə olurdu. Naxçıvana gələndə bölgələri gəzirdi, insanların qayğıları ilə maraqlanırdı. Gənclərə və uşaqlara xüsusi sevgisi var idi. Bir xatirəmi də danışım. Culfa rayonunun Yaycı kəndində Ulu Öndərin sakinlərlə görüşü zamanı balaca uşaqlar ön sıralara çıxıb səs-küy saldılar. Naxçıvanın daxili işlər naziri uşaqlara acıqlandı. Bu, Heydər Əliyevin nəzərindən qaçmadı. Hamının gözü qarşısında nazirə irad bildirdi və uşaqların Azərbaycanın gələcəyi olduğunu söylədi. Bu hadisə onun uşaqlara münasibətini göstərən yaddaqalan xatirələrimdəndir.

*– Naxçıvanda ilk rəngli fotostudiyanı da siz açmısınız?*

– Doğrudur. Naxçıvanda ilk rəngli foto yerini – "Foto Ayşə"ni 80-ci illərdə dostum Rasimlə birgə açmışdıq.

*– Həmin fotostudiya indi qalırmı?*

– Təəssüf ki, qalmır. Fotostudiyanı, bütövlükdə, buldozerlərin qabağına verdilər. Oranın mənim üçün necə əhəmiyyətli yer olduğunu bilirdilər. Ancaq indi bu mövzuları danışmağın əhəmiyyəti yoxdur. Olan olub, keçən keçib… Tariximizə, keçmişimizə biganə yanaşan insanların ucbatından mənim dəyərli fotolarım, uzun illər yol yoldaşlığı etdiyim, çörək pulu qazandığım fotoaparatlarım məhv oldu.

*– Sizə binanın söküləcəyi barədə əvvəlcədən xəbərdarlıq etmişdilər?*

– Sözdə xəbərdarlıq etdilər. Mənə bina sökülməmişdən bir gün əvvəl məlumat verdilər. Fotostudiyanı tam boşaltmağa imkan olmadı.

*– Həqiqətən də, ağrılı hadisədir… Bəs ilk fotoaparatınızın markası nə idi?*

– Mən qəzetdə işlədiyim 18 il ərzində ancaq "Kiev"lə çəkiliş etmişəm. O illərdə ən məşhur fotoaparat o idi.

*– Bu il "Şərq qapısı" qəzeti 105 yaşını qeyd edir. Qəzetin vizual yaddaşını yaradan şəxslərdən biri kimi ürək sözlərinizi eşitmək istərdik.*

– 105 il… Deməli, 105 il bundan əvvəl uzun illər çörəyini yediyimiz doğma qəzetimiz Naxçıvanımızı öz ziyası ilə nurlandırmağa başlayıb. Əlamətdar hadisədir. "Şərq qapısı" mənim üçün yalnız iş yeri deyildi. Bu qəzet yaxşı dostluqların, maraqlı və yaddaqalan xatirələrin ünvanı idi. Qürurluyam ki, ömrümün 18 ili bu qəzetdə keçib. Böyük qardaşım Səxavət Kəngərli də uzun illər bu qəzetin baş redaktoru olub. Bir sözlə, "Şərq qapısı" adı Kəngərli ailəsi üçün böyük məna daşıyır. Bu münasibətlə qəzetin rəhbərliyini və yaradıcı kollektivini səmimi-qəlbdən təbrik edirəm. Qələminiz iti, sözünüz kəsərli olsun!

*– Təşəkkür edirik, Davud müəllim, göstərdiyiniz qonaqpərvərliyə, maraqlı müsahibəyə və səmimi təbrikə görə sizə minnətdarıq.*

Müsahibimlə söhbət apararkən zamanın necə gəlib keçdiyinin fərqində olmadım. O danışdıqca sanki 18 illik sənət yolunda bir vaxtlar küçələrində addımladığımız, meydanlarında topladığımız şəhərin, üzlərini tanıdığımız insanların, hadisələrin, məkanların yaddaşını görürük. Çünki fotoaparatının obyektivindən keçən hər görüntü zamanın qarşısında saxlanılmış bir an, unudulmağa qoyulmayan bir xatirədir. Bəlkə də, illər ötdükcə bu ağ-qara kadrlar yalnız keçmişin görüntüləri kimi deyil, bütöv bir tarixi yaşadan dəyərli epoxanın yaddaşına çevriləcək. Axı bəzi fotolar, sadəcə, bir anı əks etdirmir – bir dövrü yaşadır, bir şəhərin yaddaşını qoruyur, insan ömrünü tarixlə qovuşdurur…

**✍ Məcid RƏŞADƏTOĞLU**

# Saxta zəng, saxta səs, saxta keçid: hiylə dəyişməyib, sadəcə, ekran dəyişib

## Folklordakı aldanma süjetləri fişinqin, səs klonlarının və sosial mühəndisliyin dəyişməyən mexanizmini necə açır?

Elektron xidmətlər genişlənir, bank əməliyyatları telefona keçir, sosial şəbəkələr gündəlik ünsiyyət məkanına çevrilir. Texnologiya həyatımızı asanlaşdırdıqca onun yaratdığı risklər də yeni forma alır. Cinayətkar bəzən sistemi sındırmağa çalışmır. İnsanı öz əli ilə qapını açmağa razı salır. Saxta zənglər, şübhəli keçidlər, dövlət qurumlarının adından göndərilən bildirişlər, özünü bank əməkdaşı kimi təqdim edən şəxslər, tanış adamın səsinə oxşadılmış süni səs yazıları artıq gündəlik həyatın real risklərindəndir. Məqsəd isə dəyişmir: insanın inamından sui-istifadə etmək.

Vətəndaşın telefonuna "Hesabınız bloklanacaq, dərhal keçidə daxil olun" məzmunlu mesaj gəlir. Başqa birinə bank əməkdaşı adı ilə zəng edilir. Kiməsə yaxın adamının səsinə bənzəyən səs yazısı göndərilir. Mesajın dili səliqəli, müraciət forması rəsmi, qurumun adı və loqosu inandırıcı görünür. İlk baxışda bütün bunlar texnologiya problemi təsiri bağışlayır. Əslində isə hədəf çox vaxt kompüter yox, insandır – onun qorxusu, tələskənliyi, inamı və yoxlamadan qərar vermək vərdişi.

Kibertəhlükəsizlik mütəxəssisləri belə hücumları "sosial mühəndislik" adlandırırlar. Burada əsas məqsəd proqram təminatını deyil, insanın qərarvermə mexanizmini manipulyasiya etməkdir. Saxta keçidlərlə məlumatların ələ keçirilməsi fişinq, telefon zəngi ilə aparılan aldatma "vishing", SMS vasitəsilə həyata keçirilən variant isə "smishing" adlanır. Terminlər müasirdir, alətlər yenidir, mexanizm isə çox qədimdir: əvvəl inam yarat, sonra insanı tələsdir, sonda səhv addımı ona öz əli ilə atdır.

Azərbaycanın müasir inkişaf gündəmində rəqəmsal transformasiya, informasiya təhlükəsizliyi, innovasiya və insan kapitalı bir-birini tamamlayan istiqamətlər kimi çıxış edir. Elektron xidmətlərin genişlənməsi dövlət idarəçiliyini daha çevik və əlçatan edir. Lakin vətəndaşın məlumatı yoxlama bacarığı, saxta çağırışlara qarşı ayıqlığı və internet mühitində davranış mədəniyyəti də bu proseslə ayaqlaşmalıdır. Rahatlıq təhlükəsiz davranışla tamamlanmasa, risk böyüyür. İnsan birdəfəlik təsdiq kodunu paylaşdığı anda ən güclü texniki müdafiənin belə qapısı aralana bilər.

Burada folklor artıq keçmiş haqqında xatirə kimi yox, müasir təhlükəsizlik dərsi kimi görünür. Folklor xalqın əsrlərboyu topladığı həyat və davranış yaddaşıdır. Nağıllar, dastanlar, rəvayətlər, lətifələr və atalar sözləri insanın aldanması, hiyləni tanıması, sirri qoruması və xəbərdarlığa qulaq asması barədə zəngin təcrübə daşıyır. Xalq bu bilikləri uzun nəzəri izahlarla deyil, yaddaqalan obrazlar və sadə nəticələr vasitəsilə nəsildən-nəslə ötürüb.

Dünya şifahi ənənəsində geniş yayılmış "tülkü və qarğa" motivinə baxaq. Qarğa ağzındakı pendiri qoruyur. Tülkü isə güc işlətmir, onu zorla əlindən almır. Sadəcə, tərif edir. Qarğanın zəif nöqtəsini – xoş sözə inanmaq istəyini tapır. Qarğa ağzını açır və qoruduğu tikəni itirir. Bu sadə süjet sosial mühəndisliyin mahiyyətini heyrətamiz dəqiqliklə göstərir: hücum edən şəxs parolu zorla almır, insanı elə inandırır ki, parolu özü təqdim edir.

Azərbaycan şifahi ənənəsində tülkü obrazının gücü də məhz buradadır. O, rəqibini fiziki üstünlüklə deyil, hiylə, söz, saxta vəd və yanlış təsəvvürlə məğlub edir. Müasir kiberdələduz da çox vaxt sistemlə yarışmır. İnsanla "danışır". Özünü bank, dövlət qurumu, texniki dəstək əməkdaşı, çatdırılma xidməti, rəhbər şəxs və ya tanış adam kimi təqdim edir. Ardınca "hesabınızı qoruyuruq", "təcili təsdiqləyin", "kartınız bloklanacaq", "bu kodu deyin" kimi ifadələrlə qarşı tərəfi hərəkətə gətirir. İnsan texniki əməliyyat apardığını düşünür, əslində isə ona əvvəlcədən qurulmuş hekayənin içində hərəkət etdirilir.

"Koroğlu" dastanında Keçəl Həmzə ilə bağlı xətt də bu baxımdan maraqlı paralel yaradır. Koroğlunun gücü, igidliyi və nüfuzu var. Keçəl Həmzə isə açıq döyüş yolu ilə deyil, hiylə və etibar mühitindən istifadə etməklə Qıratа yaxınlaşır. Buradakı dərs sadədir: təhlükə həmişə açıq düşmən kimi gəlmir. Bəzən xidmət, kömək, itaət, tanışlıq və xoş niyyət pərdəsi altında yaxınlaşır. Müasir rəqəmsal mühitdə də ən təhlükəli çağırışlar çox vaxt "sizə kömək edirik", "hesabınızı qoruyuruq", "təhlükəsizlik üçün təsdiqləyin" adı ilə gəlir.

Azərbaycan oxucusunun yaddaşında xüsusi yeri olan Molla Nəsrəddin lətifələri isə başqa bir vacib bacarığı öyrədir: deyilən sözün məntiqini yoxlamaq. "Qazanın doğması" kimi lətifələrdə absurd fikir əvvəl qəbul edilir, sonra həmin məntiqin saxtalığı üzə çıxarılır. Gülüşün arxasında ciddi həyat dərsi dayanır: hər deyilən sözə deyil, sözün məntiqinə baxmaq lazımdır. Bu gün vətəndaş da şübhəli mesajla qarşılaşanda özünə bir neçə sadə sual verə bilər: bu məlumatın mənbəyi kimdir? Məndən niyə tələsik qərar istəyirlər? Niyə məndən birdəfəlik təsdiq kodu tələb olunur? Niyə rəsmi qurum şəxsi mesajlaşma tətbiqindən mənimlə əlaqə saxlamalıdır? Niyə keçidə daxil olmağım üçün qorxu yaradılır? Bu sualların özü bəzən ən güclü müdafiə vasitəsidir.




Atalar sözlərimiz isə bu gün informasiya əsrinin təhlükəsizlik qaydaları kimi səslənir: "Ehtiyat igidin yaraşığıdır", "Yüz ölç, bir biç", "Şirin dil ilanı yuvasından çıxarar". Onların rəqəmsal qarşılığı çox sadədir: tanımadığın keçidə toxunma, birdəfəlik kodu heç kimə demə, rəsmi məlumatı rəsmi mənbədən yoxla, səni qorxuya və tələskənliyə sövq edən çağırışa dərhal inanma.

Folklorşünaslıq da bu yanaşmanı təsadüfi analogiyadan daha ciddi müstəviyə çıxarmağa imkan verir. Vilyam Baskom folklorun sosial normaların ötürülməsi və qorunmasındakı rolunu vurğulayırdı. Alan Dandes folkloru yaşayan mədəni sistem kimi xalqın dünyagörüşü və sosial təcrübəsi ilə əlaqələndirirdi. Vladimir Propp isə nağıl süjetlərində qadağa, onun pozulması, sınaq və aldadılma kimi təkrarlanan funksiyaları sistemləşdirmişdi. Bu yanaşmalar bir həqiqəti göstərir: folklor, sadəcə, əyləncə və ya keçmişdən qalan əhvalatlar toplusu deyil. O, insan davranışını öyrənmək üçün zəngin mədəni arxivdir. Məhz buna görə süni intellekt dövründə folklora yalnız qorunmalı irs kimi deyil, həm də təhlil edilə bilən bilik mənbəyi kimi baxmaq mümkündür.

Folklor mətnlərinin rəqəmsallaşdırılması, motivlərin təsnifatı və təbii dil emalı vasitəsilə araşdırılması bu sahənin yeni imkanlarını genişləndirir. Azərbaycan folkloru da gələcəkdə yalnız kitabxanalarda və arxivlərdə qorunan mətnlər toplusu kimi deyil, xalqın düşüncə və davranış təcrübəsini daşıyan rəqəmsal bilik bazası kimi hazırlanmalıdır. Bu, romantik bir arzu deyil. Söhbət nağıl oxumaqla kibercinayətkarlığın qarşısını almaqdan getmir. Söhbət insanın necə aldandığını daha yaxşı anlamaqdan və təhlükəsizlik maarifləndirməsini onun tanıdığı dil, obraz və davranış kodları üzərində qurmaqdan gedir.

Generativ süni intellekt bu köhnə hiylənin imkanlarını daha da genişləndirə bilər. Əvvəllər saxta məktublar çox vaxt kobud dil səhvləri ilə seçilirdi. İndi isə süni intellekt səlis, inandırıcı və fərdiləşdirilmiş mətnlər hazırlamağı asanlaşdırır. Səs klonlaşdırılması insanın tanıdığı şəxsin səsinə bənzər danışıq yaratmağa, saxta video real görüntü təsiri bağışlamağa, mesajı konkret şəxsin maraqlarına və gündəlik davranışına uyğunlaşdırmağa imkan verə bilər. Beləliklə, dələduzluq getdikcə daha fərdiləşdirilmiş və inandırıcı xarakter ala bilər. Amma burada da mahiyyət dəyişmir. Süni intellekt hiylənin özünü icad etmir. Sadəcə, köhnə hiyləyə daha güclü alət verir. Dünənin hiyləgəri insanın zəif nöqtəsini müşahidə edirdi. Bugünkü kiberdələduz həmin zəif nöqtəni texnologiyanın köməyi ilə daha dəqiq müəyyənləşdirə bilər. Dünən insanı "şirin dil" aldadırdısa, bu gün həmin şirin dil süni intellekt tərəfindən daha inandırıcı formada qurula bilər. Deməli, texnologiya inkişaf etdikcə yalnız texniki müdafiə deyil, insanın şüurlu davranışı da güclənməlidir.

"Fişinq keçidinə daxil olmayın" cümləsi peşəkar mühit üçün aydındır. Lakin hər yaş qrupundan olan insan üçün eyni dərəcədə yadda qalmaya bilər. Həmin fikri xalqın tanıdığı dildə ifadə etdikdə isə mesaj dəyişir: tanımadığın adamın qapısını açma, sirri yad adama vermə, şirin vədə aldanma, tələsik xəbərə şübhə ilə yanaş, əvvəl yoxla, sonra inan. Əslində, bunlar folklorun əsrlər əvvəl verdiyi təhlükəsizlik dərsləridir. Sadəcə, bu gün həmin dərslərin tətbiq olunduğu məkan dəyişib. Ona görə kibertəhlükəsizlik maarifləndirməsi yalnız texniki terminlərlə məhdudlaşmamalıdır. Vətəndaşa təhlükəsizlik qaydası onun başa düşdüyü dildə, tanıdığı obrazlarla və yadda saxlayacağı nümunələrlə çatdırılmalıdır.

Bu yanaşmanın praktik nəticəsi də ola bilər. İlk növbədə, Azərbaycan folklorunun etibarlı rəqəmsal korpusu hazırlanmalıdır. Mətnlərin mənbə dəqiqliyi, variantları və dil xüsusiyyətləri qorunmalıdır. Daha sonra "hiylə", "inam", "xəbərdarlıq", "sirr", "aldadıcı vəd", "qorxu", "tələskən qərar", "naməlum şəxs" və "sınaq" kimi motivlər sistemləşdirilə bilər. Belə bir baza əsasında məktəblər, universitetlər, banklar, media və dövlət xidmətləri üçün müxtəlif yaş qruplarına uyğun maarifləndirici materiallar hazırlamaq mümkündür.

Bu iş, təbii ki, yalnız bir sahənin vəzifəsi deyil. Folklorşünaslar və dilçilər mətn və mədəni irs bazasını, kibertəhlükəsizlik mütəxəssisləri real risk ssenarilərini, pedaqoqlar metodikanı, texnologiya mütəxəssisləri isə rəqəmsal imkanları təmin edə bilərlər. Belə əməkdaşlıq folkloru muzey vitrini ilə məhdudlaşdırmaz. Onu müasir təhsil, kommunikasiya və təhlükəsizlik işinin canlı mənbəyinə çevirər. Amma bir məqamı da unutmaq olmaz: folklor texniki kibertəhlükəsizlik sistemlərini əvəz etmir. Güclü parollar, çoxfaktorlu təsdiqləmə, təhlükəsiz proqram təminatı, zərərli keçidlərin aşkarlanması, məlumatların qorunması, insidentlərə çevik cavab və hüquqi mexanizmlər öz əhəmiyyətini saxlayır. Folklorun rolu başqadır: insanın davranışını anlamaq və təhlükəni onun yaddaşında olan dildə izah etmək.

Xalq yaddaşına söykənən kommunikasiya güclü vasitədir. Lakin bu güc yalnız maarifləndirmə üçün deyil, manipulyasiya üçün də istifadə oluna bilər. Miflər, qəhrəman obrazları, tarixi xatirələr və emosional simvollar dezinformasiya kampaniyalarında da istismar edilə bilər. Ona görə folklor əsaslı rəqəmsal məzmun elmi dəqiqlik, etik məsuliyyət və informasiya təhlükəsizliyi prinsipləri nəzərə alınmaqla hazırlanmalıdır. Milli yaddaş insanı ayıltmalıdır, onu yeni manipulyasiyanın obyektinə çevirməməlidir.

Bu məsələ rəqəmsal suverenlik baxımından da əhəmiyyətlidir. Dilin, milli məzmunun və mədəni yaddaşın yeni texnoloji mühitdə yaşaması gələcəyin mühüm şərtlərindəndir. Azərbaycan dilində süni intellekt sistemləri yalnız sözləri deyil, həmin sözlərin arxasındakı mədəni təcrübəni də tanımalıdır. Bu baxımdan, folklor, klassik ədəbiyyat, ictimai fikir və müasir dil materialları gələcəyin Azərbaycan dilli süni intellekt sistemləri üçün mühüm mənbələrdən biri ola bilər.

İnsan kapitalının mühüm göstəricilərindən biri artıq rəqəmsal ayıqlıqdır. Müasir insanın savadlılığı kompüterdən və smartfondan istifadə etməklə bitmir. O, məlumatı yoxlamağı, mənbəni ayırd etməyi, şəxsi məlumatını qorumağı, qorxu və tələskənlik qarşısında soyuqqanlı qalmağı bacarmalıdır. Çünki ən müasir sistemin qarşısında belə, bəzən bir insan dayanır. Bir kodu paylaşmaq, bir keçidə toxunmaq, bir faylı açmaq və ya saxta zəngə inanmaq üçün cəmi bir neçə saniyə kifayətdir. Texniki müdafiənin illərlə qurduğu sədd insanın bir anlıq qərarı ilə aralana bilər. Azərbaycanın rəqəmsal inkişafı texnologiya, insan və milli yaddaşın birlikdə düşünülməsini tələb edir. Rəqəmsal hökumət daha rahat xidmət, süni intellekt daha ağıllı sistemlər, kibertəhlükəsizlik daha güclü müdafiə yaradır. Lakin bütün bunların qarşısında ayıq və məsuliyyətli vətəndaş dayanmasa, texnologiyanın yaratdığı rahatlıq yeni risklərə də çevrilə bilər. Azərbaycan folkloru bu baxımdan keçmişin nostalji xatirəsi yox, gələcəyin intellektual resursudur. O, xalqın hiyləni necə tanıdığını, təhlükəni necə sezdiyini, ağılı necə ucaltdığını və inamı necə ölçdüyünü göstərir.

Bugünkü fişinq mesajı dünənin yalançı xəbərçisidir. Bugünkü süni səslə qurulan aldatma dünənin cildini dəyişmiş hiyləgəridir. Bugünkü saxta keçid dünənin tələsidir. Fərq yalnız bundadır: indi tələ insanın qarşısına nağıl meydanında yox, telefon ekranında çıxır. Ona görə rəqəmsal əsrin vətəndaşı texnologiyanı öyrənməklə yanaşı, öz xalqının yaddaşındakı ayıqlıq dərsini də yenidən oxumalıdır.

Gələcəyin təhlükəsiz cəmiyyəti ağıllı sistemlərlə yanaşı, ayıq və məsuliyyətli vətəndaşa ehtiyac duyacaq. Azərbaycan folkloru isə milli yaddaşın dərin qatından gələn sadə, lakin bu gün əvvəlkindən daha qiymətli bir xəbərdarlıqdır: hər sözə inanma, hər çağırışa tələsmə, sirrini qoru, əvvəl yoxla, sonra qərar ver. Çünki texnologiya nə qədər inkişaf etsə də, təhlükəsizliyin son qərarı çox vaxt insanın bir anlıq seçimindən başlayır.

**Səadət MƏMMƏDOVA**
*AMEA Naxçıvan Bölməsi Aparatının Rəqəmsallaşma və süni intellekt şöbəsinin aparıcı mütəxəssisi*

# Ulduzlara toxunan ünvan

**Dumanın dağ yamacları ilə asta-asta aşağı yuvarlandığı, şəhər işıqlarının küyündən tamamilə təcrid olunmuş əsrarəngiz bir sükut zonasındayıq. Dəniz səviyyəsindən 2050 metr yüksəklikdə yerləşən Batabat yaylağında hava elə şəffaf, səma elə yaxındır ki, insan əlini uzatsa, ulduzlara toxunacaqmış hissinə qapılır. Məhz burada – Zəngəzur silsiləsinin ətəklərində Azərbaycan astronomiya elminin ən mühüm müşahidə məntəqələrindən biri – Naxçıvan Dövlət Universitetinin Batabat Astrofizika Rəsədxanası ucalır. Unikal mikroiqlimi və yüksək atmosfer şəffaflığı ilə seçilən Batabat ərazisində elmi müşahidə stansiyasının yaradılması həyati zərurət kimi ortaya çıxıb. Aparılan hərtərəfli tədqiqatların yekununda 1971-ci il martın 25-də qəbul edilən qərarla Batabat rəsədxanasının bünövrəsi qoyulub.**




**Rəsədxananın yaradılması ilə burada, eyni zamanda kadr potensialının formalaşdırılması da mühüm əhəmiyyət daşıyıb. Nüfuzlu universitetləri bitirmiş gənclərin, yerli mütəxəssislərin buraya cəlb edilməsi sayəsində qısa müddətdə güclü elmi potensiala malik kollektiv formalaşıb. 1978 və 1979-cu illərdə rəsədxanada kometlər üzrə Ümumittifaq konfranslarının keçirilməsi ilə Batabat artıq ciddi elmi mərkəz kimi qəbul olunub. Təsadüfi deyil ki, fəaliyyətinin ilk illərində rəsədxana əməkdaşlarının 120-dən çox elmi əsəri nüfuzlu elmi jurnallarda işıq üzü görüb.**



### *Səmanın sükutunda böyük əmək*

Naxçıvan Dövlət Universitetinin Batabat Astrofizika Rəsədxanasının direktoru, astronomiya üzrə fəlsəfə doktoru Ruslan Məmmədov söhbət zamanı bu yüksəklikdə işləməyin fəlsəfəsini vurğulayaraq qeyd edir ki, Batabatda astronomik müşahidələr aparmaq həm də təbiətin və kainatın sakitliyi ilə baş-başa qalmaqdır. Şəhər işıqlarından uzaq olan bu yüksəklikdə gecə səması öz təbii qaranlığını və şəffaflığını tam qoruyub saxlayır.

Rəsədxananın texniki bazasının formalaşması 1974-cü ildə ilk böyük cihazın, Günəş Koronoqrafının quraşdırılması ilə yeni mərhələyə qədəm qoyub. Bu unikal cihaz vasitəsilə qısa müddətdə Günəş spikulalarının yüksək dəqiqlikli müşahidələri həyata keçirilməyə başlanıb. 1990-cı ildə isə rəsədxanada səma cisimlərinin tədqiqində mühüm rol oynayan, müasir astrofizikanın işlək flaqmanlarından sayılan "Zeiss-600" teleskopu istifadəyə verilib. Bu texniki təchizat Batabat Astrofizika Rəsədxanasının müşahidə imkanlarını daha da artırıb.

Müstəqillik illərində göstərilən dövlət qayğısı Batabat Astrofizika Rəsədxanasının taleyində köklü dönüş yaradıb. Bu diqqətin bəhrəsi olaraq Naxçıvan şəhərində rəsədxananın inzibati bazası, Batabat yaylağında isə müasir inzibati bina və yaşayış kompleksi tikilərək istifadəyə verilib. Paralel olaraq rəsədxananın əsas işçi aləti olan "Zeiss-600" teleskopu modernləşdirilərək yenidən Batabatda öz xidmətinə qaytarılıb.

Texniki yenilənmə prosesi sonrakı dövrdə də davam etdirilib.



Rəsədxananın aparıcı elmi işçisi Mirhəsən Tahirov "Zeiss-600" teleskopu üçün addım mühərrikləri və MACH3 idarəetmə sistemindən ibarət yeni proqramlaşdırılmış kompleksi sıfırdan yığaraq tətbiq edib. Bu innovativ yenilik teleskopun izləmə dəqiqliyini və kadrların rəqəmsal keyfiyyətini müasir standartlar səviyyəsinə qaldırıb.

Batabat yaylağının astronomik müşahidə üçün seçilməsi təkcə havanın şəffaflığı ilə məhdudlaşmır. İl ərzində aydın gecələrin sayının həddən artıq çox olması, nisbi rütubətin aşağı səviyyəsi, dəniz səviyyəsindən 2050 metr yüksəklik və ən əsası, süni işıq çirklənməsinin sıfıra yaxın olması buranı əvəzolunmaz edir. Sənaye obyektlərindən və şəhər mərkəzlərindən uzaqlıq gecə səmasının təbii qaranlıq fonunu qoruyur ki, bu da zəif işıqlı səma cisimlərinin fotometrik tədqiqi üçün həyati əhəmiyyət daşıyır.

### *Gecə başlayanda iş bitmir*

Hazırda rəsədxanada əsas elmi işlər Günəş sisteminin kiçik cisimləri olan kometlərin, eləcə də müxtəlif ulduz tiplərinin (simbiotik, cavan və Prosion kimi parlaq ulduzların) parlaqlıq dəyişmələrinin izlənilməsi və modelləşdirilməsi ilə bağlıdır.

Elmi heyətin sayca az olmasına baxmayaraq, əldə edilən nəticələr yüksəkdir. Əməkdaşların elmi məqalələri "Web of Science" və "Scopus" kimi nüfuzlu beynəlxalq bazaların jurnallarında dərc olunur və onlar xaricdəki konfranslarda Azərbaycan elmini layiqincə təmsil edirlər.

Astrofizikin gecə növbəsi kənardan sakit görünsə də, əslində, son dərəcə gərgin, dəqiqlik və psixoloji dözümlülük tələb edən ağır əmək prosesidir. Ruslan müəllim deyir ki, müşahidələrə hazırlıq hələ gün batmazdan xeyli əvvəl başlayır. Teleskoplar, idarəetmə sistemləri, soyutma qurğuları və CCD kameralar hazır vəziyyətə gətirilir, havanın rütubəti və şəffaflığı ölçülür. Hava qaraldıqda kiçik səma cisimləri və ulduzlar izlənməyə başlanılır. Teleskop obyekti dəqiqliklə tutub saxlayır, CCD kameralar isə milyardlarla kilometr uzaqdakı işıq zərrəciklərini rəqəmsal kadra çevirir. Dəqiqliyi təmin etmək və təsviri elektron küylərdən təmizləmək üçün isə xüsusi kalibrləmə kadrları (bias, dark, flat) çəkilir.

Ruslan Məmmədov bu gərgin prosesin mahiyyətini izah edərkən bildirir ki, müşahidə gecəsi bitdikdə iş tamamlanmır, əksinə, ən məsuliyyətli mərhələ başlayır. Kadr almaq işin yarısıdırsa, əsas məsələ həmin materialı dəqiqliklə emal edib riyazi nəticəyə çevirməkdir.

Səhər açıldıqda toplanan rəqəmsal kadrlar MaxIm DL proqramı vasitəsilə küylərdən təmizlənir, təhlil edilir və riyazi emaldan keçirilir. Çətinliklərə baxmayaraq, əldə olunan nəticələr isə arzuolunandır.



Araşdırmalar uzundövrlü komet orbitlərinin xüsusiyyətləri, Günəşdəki irimiqyaslı maqnit sahələrinin dövrləri və müxtəlif ulduzlarda baş verən dəyişikliklərlə bağlı mühüm nəticələr ortaya qoyub.

### *Elmin davamlılığı gənclərdən keçir*

Rəsədxanada gənc mütəxəssislərin irəli çəkilməsi və elmi təcrübənin davamlılığının təmin edilməsi prosesi uğurla həyata keçirilir. Hazırda rəsədxanada çalışan 8 elmi işçidən 5-i məhz gənc tədqiqatçılardır.

Bu istiqamətdə xüsusilə böyük dönüş nöqtəsi ölkə Prezidentinin müvafiq Sərəncamı ilə Batabat Astrofizika Rəsədxanasının Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi oldu. Bu tarixi addım elmlə ali təhsilin inteqrasiyasına müstəsna təkan verib.

Naxçıvan Dövlət Universitetinin Fizika və Fizika müəllimliyi ixtisaslarının dərsləri və istehsalat təcrübələri birbaşa Batabat rəsədxanasında, teleskoplar arxasında keçirilir. Bu inteqrasiyanın uğurlu bəhrəsi kimi II kurs tələbəsi Nuray Əhmədovanın Moskvada keçirilən "Erudit" Beynəlxalq Onlayn Astronomiya və Astrofizika Müsabiqəsində 100 faiz nəticə göstərərək qızıl medal qazanmasını qeyd etmək olar. Bu təkcə bir tələbənin uğuru deyil, həm də elmin gənc nəslə ötürülməsinin, tələbənin auditoriyadan çıxaraq real tədqiqat mühitinə daxil olmasının göstəricisidir.

Dağların zirvəsində mütləq səssizlikdə kainatı izləmək astronom üçün həm ağır sınaq, həm də əvəzolunmaz ilham mənbəyidir. Soyuq gecələrin, yuxusuz saatların və mürəkkəb hesablamaların sonunda işlənən bircə kadrda kainatın sirrini oxumaq bütün yorğunluğu silib aparır. Naxçıvanın dağ zirvəsində yanan bu elmi çıraq təkcə elmin üfüqlərinə işıq saçmır, həm də gənc qəlblərdə kainatı kəşf etmək həvəsini alovlandırır. Bəlkə də, Batabatın ən böyük sirri elə budur: burada insan ulduzlara yalnız baxmır, onlara bir az da yaxınlaşır.

✍ **Elnurə CƏFƏROVA**



# Zəhmət və təşəbbüskarlıq yeni imkanlar yaradır

Əmək bazarına çıxış imkanlarının genişləndirilməsi, xüsusilə sosial müdafiəyə ehtiyacı olan vətəndaşların məşğulluğunun təmin edilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 iyul tarixli Sərəncamı ilə "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq edilib. Bu sənədə əsasən əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi, eləcə də əmək bazarına qoşulmaqda çətinlik çəkən və xüsusi müdafiəyə ehtiyacı olan vətəndaşların məşğulluğunun təmin edilməsi üçün yeni imkanların yaradılması nəzərdə tutulur.

Bu istiqamətdə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən sosial qayğıya ehtiyacı olan qadınların əl işlərinin və hazırladıqları məhsulların satışına dəstək olmaq məqsədilə sərgi-satışlar təşkil olunur. Sərgi-satışlar xalqımızın ailə dəyərlərinin qorunub saxlanılması, adət-ənənələrinin yaşadılması, həmçinin qadınların özünüməşğulluqlarının təmin edilməsinə xidmət edir. Qeyd edək ki, 2026-cı ilin ilk 6 ayı ərzində keçirilən, ümumilikdə, 6 sərgi-satış və festivalda, eləcə də əl işləri mağazasında 73 müəllifin 17095 adda müxtəlif əl işləri və 66 növdə ailə təsərrüfatı



məhsulları sərgilənib. 50 müəllifin 14 878 manat dəyərində 3277 əl işinin və ailə təsərrüfatı məhsullarının satışı həyata keçirilib. Həmçinin Naxçıvan Muxtar Respublikasında tək qadınların və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi davam etdirilib. Belə təşəbbüslərin arxasında isə yalnız rəqəmlər deyil, öz zəhməti ilə ailə büdcəsinə töhfə verən, bacarıqlarını gəlir mənbəyinə çevirən insanların həyat hekayələri dayanır. Həmin kateqoriyaya aid olan qadınlardan bir neçəsi ilə həmsöhbət olduq.

Babək rayonunun Yarımca kəndindən olan, hazırda Naxçıvan şəhərində yaşayan Çiçək Məmmədova uşaqlıqdan əl işlərinə maraq göstərib. İllər keçdikcə bu maraq onun sevdiyi məşğuliyyətə, daha sonra isə ailə büdcəsinə töhfə verən fəaliyyətə çevrilib. Çiçək xanım əl işlərinə peşəkar şəkildə 2020-ci ildən başlayıb. İlk işi isə bir tanışının övladları üçün yeni il dekorasiyası hazırlaması olub. Hazırladığı işin bəyənilməsi onda bu sahəyə olan marağı daha da artırıb. Zaman keçdikcə yaradıcılıq istiqamətlərini genişləndirərək müxtəlif əl işləri ərsəyə gətirib.

"Əl işinə marağım uşaqlıqdan olub. Bu sənəti özüm öyrənmişəm. Marağım o qədər böyük idi ki, sevərək öyrənməyə başladım və davam etdim", – deyə Çiçək Məmmədova bildirir.

Onun hazırladığı əl işləri kifayət qədər müxtəlifdir. Ev aksesuarları, qələmqabılar, fırça və daraq qabları, güldanlar, uşaqlar üçün boyama fiqurları və müxtəlif dekorativ nümunələr hazırlayır. Hər bir işin hazırlanma müddətinin fərqli olduğunu deyən həmsöhbətim bəzi məhsulların bir saata, bəzilərinin isə bir neçə günə başa gəldiyini qeyd edir. Əsasən, daş tozu və gipsdən istifadə edən Çiçək xanım hazırladığı məhsulların növbəti mərhələsində akril boyalardan və qoruyucu parlaq laklardan yararlanır və əl işlərində milli motivlərə də xüsusi yer ayırır. Onun sözlərinə görə, hər bir məhsul ərsəyə gələnədək müxtəlif mərhələlərdən keçir və burada səbir, diqqət və zəhmət əsas şərtlərdəndir. Hazırladığı məhsullara daha çox uşaqların və qadınların maraq göstərdiyini deyən Çiçək xanım əl işlərini həm evdən sifariş qəbul etməklə, həm də sərgi-satış yarmarkalarında iştirak edərək satışa çıxarmaqla təqdim edir. Bu fəaliyyət onun üçün yalnız sevimli məşğuliyyət deyil, eyni zamanda ailəsinə maddi dəstək olmaq imkanıdır. O xüsusilə qadınların öz bacarıqlarına inanmasının vacibliyini düşünür. Onun ən böyük arzularından biri isə gələcəkdə öz emalatxanasının olması, mağaza açmaq və hazırladığı əl işlərini daha çox insana çatdırmaqdır.

Digər müsahibim Ordubad rayonu, Yuxarı Əndəmic kənd sakini Banuçiçək İsmayılova da dövlətimizin yaratdığı şəraitdən istifadə edərək öz məşğuluğunu təmin edib. Dörd qız anası olan Banuçiçək xanım artıq 10 ilə yaxındır ki, ailə təsərrüfatı ilə məşğuldur. O qeyd edir ki, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən ailə təsərrüfatlarının inkişafına dəstək məqsədilə dayanıqlı biznesə sərmayə kapitalı alaraq işə başlayıb. Onun fəaliyyəti, əsasən, müxtəlif kənd təsərrüfatı məhsullarının emalı, qablaşdırılması və konservləşdirilməsi ilə bağlıdır. Hazırladığı məhsullar sırasında müxtəlif mürəbbələr, turşular və digər ev məhsulları yer alır.

Ailə təsərrüfatı ilə məşğul olmağa başlamasının əsas səbəbi isə ailəsinə əlavə dəstək olmaq, övladlarının gələcəyinə öz əməyi ilə töhfə vermək olub. Zaman keçdikcə bu fəaliyyət Banuçiçək xanımın yalnız ailə büdcəsinə dəstək vasitəsi deyil, həm də sevdiyi və həvəslə gördüyü işə çevrilib. Hazırladığı məhsulların satışını müxtəlif yollarla həyata keçirir, festivallarda iştirak edərək məhsullarını təqdim edir.

Ailə təsərrüfatının fəaliyyət istiqamətlərindən biri də Ordubadın özünəməxsus mət-



bəx nümunələrinin hazırlanmasıdır. Yerli şirniyyat və yeməklərə olan maraqdan yararlanan Banuçiçək xanım sifarişlər də qəbul edir. Beləliklə, ailə təsərrüfatı yalnız konserv məhsullarının hazırlanması ilə məhdudlaşmır, həm də bölgənin zəngin kulinariya ənənələrinin yaşadılmasına xidmət edir. Banuçiçək xanım bu işin asan olmadığını, ailə təsərrüfatı məhsullarının hazırlanmasının zəhmət tələb etdiyini vurğulayır.

Hər iki qadının həyat hekayəsi bir həqiqəti göstərir: yaradılan imkanlardan yararlanaraq bacarıq və zəhməti real gəlir mənbəyinə çevirmək mümkündür. Əl işi və ailə təsərrüfatı yalnız ailə büdcəsinə töhfə vermir, eyni zamanda qadınların iqtisadi fəallığının artmasına, milli sənətkarlıq və kulinariya ənənələrinin qorunmasına, təşəbbüskarlıq ruhunun güclənməsinə xidmət edir.

✍ Səmayə RƏSULOVA

# Avropadan Şərura 3 medal gətirən yeniyetmə

Kosovonun Priştina şəhərində keçirilən ağırlıqqaldırma üzrə U-15 və yeniyetmələr arasında Avropa birinciliyinə yekun vurulub.



Qitə birinciliyində mübarizə aparan Azərbaycan idmançıları uğurlu nəticələr əldə ediblər. Yarışda millimizin heyətində çıxış edən Şərur rayon Uşaq-Gənclər İdman Məktəbinin yetirməsi Fəxrəddin Allahverdiyev Avropa birinciliyində üç medal qazanıb.

85 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız birdən qaldırma hərəkətində 122, təkanla qaldırmada isə 150 kiloqram nəticə göstərərək hər iki hərəkətdə gümüş medal qazanıb. İki hərəkətin cəmində 272 kiloqram nəticə göstərən Fəxrəddin Allahverdiyev bu nəticə ilə yekun sıralamada da ikinci olub.

Avropa birinciliyində qazandığı uğurlarını "Şərq qapısı" qəzeti ilə bölüşən Fəxrəddin Allahverdiyev deyir ki, qitə birinciliyinə ciddi hazırlıq keçərək yollanıb: "Əsas məqsədim öz nəticəmi yaxşılaşdırmaq, Azərbaycanı, doğma Naxçıvanı layiqincə təmsil etmək idi. Yarış mənim üçün həm məsuliyyətli, həm də yaddaqalan oldu. Gərgin mübarizə şəraitində keçən birincilikdə yüksək nəticə göstərərək üç gümüş medal qazanmağım məni çox sevindirdi. Bu nəticə mənə qarşıdakı yarışlarda daha böyük uğurlar qazanmaq üçün əlavə motivasiya verdi. Bu uğurun əldə olunmasında mənə dəstək olan şəxsi məşqçim Şəfi müəllimə xüsusi təşəkkür edirəm. Onun məşqlərdə verdiyi tapşırıqlar və tövsiyələr mənim üçün çox önəmlidir. Bu nəticə həm mənim, həm də məşqçimin əziyyətinin bəhrəsidir".

Yeniyetmə idmançı əldə etdiyi nəticəni qarşıdakı yarışlar üçün mühüm təcrübə hesab edir. O, bundan sonra məşqlərini daha da gücləndirərək beynəlxalq arenada daha yüksək nəticələr qazanmağı və Azərbaycan Bayrağını ən yüksək zirvədə dalğalandırmağı qarşısına məqsəd qoyub.

Avropa birinciliyində yetirməsinin uğur qazanması ən çox Azərbaycanın Əməkdar məşqçisi, idman ustası Şəfi Hüseynovu sevindirib: "Uzun müddətdir, Fəxrəddin məşq prosesini intensivləşdirib. Onun beynəlxalq arenalarda uğur qazanacağına əmin idim. Çünki bir idmançının perspektivi onun məşqlərə yanaşmasından, məsuliyyətindən və seçdiyi idmanı sevməsindən hiss olunur. Fəxrəddin zala gəldiyi gündən hər zaman öz istedadı ilə seçilib. Tələbəmin belə uğur qazanması bir məşqçi kimi məni çox sevindirdi. Məşqçilər hər zaman yetirmələrinin uğurları ilə bəhrələnir. Düşünürəm ki, Fəxrəddinin böyük uğurları hələ qabaqdadır, onu mən böyüklər arasında dünya və Avropa çempionu kimi görürəm. İnanıram ki, o, gələcəkdə Azərbaycan bayrağını daim yüksəklərdə dalğalandıracaq".

Qeyd edək ki, Azərbaycanın ağırlıqqaldırma üzrə yığma komandası Avropa birinciliyini 3 qızıl, 5 gümüş və 7 bürünc olmaqla, ümumilikdə, 15 medalla başa vurub. Fəxrəddin Allahverdiyev isə bu uğurlu nəticələrə üç gümüş medalla töhfə verib.

✍ Elnurə CƏFƏROVA

## Elan

"Naxçıvan Qaziləri" İctimai Birliyinin üzvlərinin nəzərinə!

"Naxçıvan Qaziləri" İctimai Birliyinin fəaliyyətinin daha səmərəli təşkili, təşkilati məsələlərin müzakirəsi və birliyin gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə 20 sentyabr 2026-cı il tarixdə, saat $11^{00}$-da birliyin ümumi yığıncağı keçiriləcək. Birliyin bütün üzvlərinin ümumi yığıncaqda iştirak etmələri xahiş olunur.

*Tarix: 20 sentyabr 2026-cı il, saat: $11^{00}$*
*Ünvan: Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin iclas zalı*

## *İtmişdir*

Babək rayonu, Aşağı Buzqov kəndində yaşamış Əliyev Vəli Əli oğlunun adına olan $78^{A}$ və $78^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Vənənd kənd sakini Fərəcov Nəcəf Bəşir oğlunun adına olan JN-$591^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Məmmədova Nəzakət Əsgər qızının adına verilmiş JN-$307^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Aza kənd sakini İlyasov Qasım Əlmədət oğlunun adına olan 4951 inventar nömrəli qeyri-yaşayış binasına verilmiş texniki pasport itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Seyidova Lamiyə Hüseyn qızının adına olan 2018-ci il oktyabr ayında verilmiş 762813 nömrəli Yeni Azərbaycan Partiyasının vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Ələkbərov Azər Xəncan oğluna məxsus JN-$2080^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Abbasov Elşad Əlif oğlunun adına olan JN-$949^{A}$ nömrəli, $1031101^{B}$ kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Kotam kənd sakini Muxtarova Nuriyyə Qurban qızının adına olan JN-$14^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Şahbuzkənddə Əsgərov Adil Musa oğlunun adına verilmiş JN-$318^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Həsənova Nəzakət Əliqulu qızının adına olan JN-$2143^{A}$ nömrəli, 10300058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kəndində yaşamış Qasımova Zəhra Süleyman qızına məxsus JN-$106^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kənd sakini İsmayılov Şakir Teymur oğluna məxsus JN-$141^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kürçülü kənd sakini Cəfərov Əli Məmmədqulu oğluna məxsus JN-$61^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Əliyev Nadir Ələsgər oğluna məxsus JN-$446^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Məmmədova Qənirəbəyim Şəmil qızına məxsus JN-$75^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: RƏMZİ TAHİRLİ
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 193
Nömrəyə məsul: Ceyhun Məmmədov, Zəhra Vəliyeva
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.